QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 011 (5731) **18 yanvar** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Güclü iqtisadiyyatın təminatı güclü ərzaq təhlükəsizliyinin qarantıdır

Səh 2

*İlham Əliyev:*
*“Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur”*




Cənubi Qafqazda yeni reallıq...



5

“Onların reallaşdırılması dünyada Azərbaycanın siyasi nüfuzunun artmasının rəhni olacaq”



3

“Cocuq Mərcanlı bütün Qafqaz regionunda xoş gələcəyin müjdəçisidir”



11

Aleksandr Duqin: Rusiya Azərbaycanla daha çox yaxınlaşır



4

Kərki kəndinin ermənilər tərəfindən işğal olunmasından 29 il ötür



13

Ermənistan ordusunda qiyam: Zabitlər də etiraza qalxdı!



4

7
“Azərbaycan yeni diplomatik formatlar müəyyən edib”



7
Avropa Parlamentinin riyakarlıq və qərəz simasızlığı - Sorosdan Harmsa qədər...



16
Kriştianu Ronaldu: “İbrahimoviç mənim paxıllığımı çəkir”



# Güclü iqtisadiyyatın təminatı güclü ərzaq təhlükəsizliyinin qarantıdır

## *İlham Əliyev: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*

***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan davamlı inkişaf kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə daha da möhkəmlənib, qeyri-neft sektorunun, eləcə də, aqrar sektor üzrə istehsalın və ixracın artırılması istiqamətlərində kompleks tədbirlər görülüb. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 dekabr tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsinə dair" Fərman aqrar sektora dövlət dəstəyinin real amildir.***



Məhz intensiv texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi, aqroparklar, iri fermer və bağçılıq təsərrüfatlarının, müasir heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin fəaliyyətə başlaması, meliorativ tədbirlər nəticəsində, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi bu sahədə iqtisadi artımı sürətləndirib. Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 332 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 113 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq 6 aqropark fəaliyyətə başlayıb, cari ilin sonunadək daha 12 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Qeyd edilənlər nəzərə alınaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə isə orta hesabla 4,5 faizdən çox artım gözlənilir. Qarşıdakı dövr üçün qeyd edilən proqnoz göstəricilərinin reallaşdırılmasına 2019-cu ilin dövlət büdcəsində aqrar sektorun inkişafı məqsədilə nəzərdə tutulan xərclərin cari illə müqayisədə 10,5 faiz artırılaraq, 835 milyon manat səviyyəsinə çatdırılması da öz müsbət təsirini göstərəcək. Bu isə kənd təsərrüfatı üzrə istehsalın və ixracın artırılması sında uğurların şərtləndirilməsi deməkdir.



Ölkə Prezidenti, həmçinin fermerlərə göstərilən dövlət dəstəyindən də danışdı: "Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır... Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir, metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yəni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini də görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcək".

### Azərbaycan - çoxşaxəli iqtisadi trayektoriyada

Dövlət başçısı Azərbaycanın öz keyfiyyətli məhsulu ilə dünya bazarlarına daha böyük həcmdə çıxacağını vurğulayaraq, bildirib ki, ölkə iqtisadiyyatı çoxşaxəli istiqamətdə inkişaf edəcək: "İdxaldan asılılıq minimum səviyyəyə düşəcək və yeni iş yerləri, istehsalat sahələri yaradılacaq ki, bunun Azərbaycan vətəndaşları üçün, dövlətimiz üçün böyük faydası var: "Bizim üçün kənd təsərrüfatının bütün sahələri böyük əhəmiyyət daşıyır. Son vaxtlar görülən işlər və keçirilən müşavirələr, mənim bölgələrə səfərlərim, bir daha onu göstərir ki, biz düzgün yoldayıq".

Beləliklə, göstərilən faktlar, bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütün sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə, ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Təsadüfi deyil ki, elə Prezident İlham Əliyev çıxışlarında ənənəvi olan sahələrin uğurla inkişaf etdirildiyini də bildirib: "Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı... Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir".

Əlbəttə ki, butun bu reallıqlar, onu deməyə əsas verir ki, dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı görülən işlərin sürəti bundan sonra daha da artırılacaqdır. Çünki kənd təsərrüfatının inkişaf etdirilməsi, dövlətin iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevrilməsinə stimul verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1427-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# "Onların reallaşdırılması dünyada Azərbaycanın siyasi nüfuzunun artmasının rəhni olacaq"

## *Elmar Məmmədyarov "İnterfaks" agentliyinə eksklüziv müsahibə verib*

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "İnterfaks" agentliyinə eksklüziv müsahibə verib.***




AZƏRTAC xəbər verir ki, nazir Elmar Məmmədyarov agentliyə müsahibəsində Azərbaycan ilə Rusiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını və regionlararası səviyyədə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin münasibətlərimizin prioritetlərindən biri olduğunu bildirib. Bununla əlaqədar olaraq, ticari-iqtisadi, humanitar və digər sahələrdə Sankt-Peterburq ilə işlənmiş hazırlanmış və uğurla davam edən əməkdaşlıq formatlarından istifadə olunmasına xüsusi diqqət yetirilir.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı deyib: "2018-ci ilin dekabrında müvafiq hökumətlərarası komissiyanın ikinci iclası keçirilib. İclasda tərəfdaşlığımızın vəziyyəti və qarşılıqlı faydalı əsasda genişləndirilməsinin perspektivləri müzakirə edilib. Çox diqqətəlayiq haldır ki, 2020-ci ildə Azərbaycan dünyanın mədəni həyatında ən sanballı tədbirlərdən biri olan Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda iştirak edəcək. Əminəm ki, ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğu Azərbaycan ilə Rusiyanın Şimal paytaxtı arasında ikitərəfli əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcək və bu istiqamətdə səylər göstərəcək".

Diplomat 2019-cu ildə Azərbaycanın xarici siyasətinin prioritetlərinə toxunaraq bildirib ki, ötən il olduğu kimi, 2019-cu ildə də ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara əsaslanan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasət yeridəcək və beynəlxalq aləmdə onun mövqelərinin qorunub saxlanılmasına səy göstərəcək.

Elmar Məmmədyarov deyib: "2019-cu ildə xarici siyasətin prioritetləri ilk növbədə ölkəmizin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün beynəlxalq miqyasda tanınmış sərhədlər çərçivəsində bərpa olunması, habelə irimiqyaslı layihələrin reallaşdırılmasının davam etdirilməsi, bütün beynəlxalq aktorlarla qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi olacaq".

Nazir vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyü və suverenliyi əsasında nizamlanmalıdır.

Diplomat deyib: "Nizamlanmanın hüquqi bazasına müraciət edərkən xatırlatmaq lazımdır ki, onu ilk növbədə BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamə, digər beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının, GUAM-ın, NATO-nun, Avropa Parlamentinin və s. qərarları, habelə ikitərəfli və çoxtərəfli formatlarda qəbul edilmiş birgə sənədlər təşkil edir. Təəssüf ki, uzun illər davam edən danışıqlar heç bir nəticə verməyib. Lakin Ermənistanda baş verən son hadisələr, habelə Düşənbədə və Sankt-Peterburqda MDB sammitləri müstəvisində Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının baş naziri arasında söhbətlər, eləcə də erməni həmkarımla üç görüşüm danışıqlar prosesinin irəlilədilməsi nöqteyi-nəzərindən müəyyən nikbinlik üçün əsas verir".

Nazirin sözlərinə görə, Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətləri başçılarının, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Milanda nazirlər səviyyəsində keçirilən görüşü çərçivəsində qəbul edilmiş 2018-ci il 6 dekabr tarixli birgə bəyanatında münaqişənin sülh yolu ilə ədalətli və davamlı tənzimlənməsi üzrə danışıqları davam etdirməyə razılığın əldə olunması qeyd edilib. Bu isə o deməkdir ki, danışıqların formatı dəyişməyib. Sənəddə, həmçinin Düşənbədə iki dövlətin rəhbərləri səviyyəsində əldə olunmuş razılaşmaya riayət edilməsinə və hər iki ölkənin əhalisinin sülhə hazırlanması üçün konkret addımların atılmasına çağırış əksini tapıb. Bundan əlavə, birgə bəyanatda yaxın gələcəkdə Azərbaycan və Ermənistan rəhbərlikləri səviyyəsində intensiv danışıqların aparılmasının zəruriliyi barədə fikir ifadə olunub.

E. Məmmədyarov deyib: "Münaqişənin nizamlanmasında irəliləyişin əldə olunması bütün regionda sülh, təhlükəsizlik və sabitliyə şərait yaratmaqla, ilk növbədə Ermənistanın özündə iqtisadi inkişafa imkanlar açacaq. Ölkəmiz digər etnik qrupların nümayəndələri olan vətəndaşlarının təhlükəsizliyini təmin etdiyi kimi, özünün beynəlxalq öhdəliklərinə uyğun olaraq Dağlıq Qarabağın erməni mənşəli vətəndaşlarına münasibətdə də bunu etmək və onlara Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində yüksək səviyyədə özünüidarəetmə hüququ verməyə hazırdır".

Nazir vurğulayıb ki, Azərbaycanı narahat edən problemlərə və beynəlxalq gündəliyin aktual məsələlərinə dair ölkəmizin mövqeyi BMT Baş Məclisinin 73-cü sessiyası çərçivəsində keçirilən bir sıra tədbirlərin gedişində böyük anlayışla qarşılanıb və dəstəklənib. Məsələn, BMT-nin Baş Məclisi Azərbaycanın təklif etdiyi "İtkin düşmüş şəxslər" adlı qətnaməni dekabrın 17-də qəbul edib. Sənəddə beynəlxalq birliyin diqqəti beynəlxalq humanitar hüququn müddəalarına hörmət və onlara riayət olunması, silahlı münaqişələr şəraitində insanların itkin düşməsi hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı üzrə bütün zəruri tədbirlərin görülməsi, o cümlədən beynəlxalq öhdəliklərə müvafiq olaraq onların taleyinin müəyyən edilməsi üçün əməkdaşlıq üzərində cəmləşdirilir.

Aprelin 3-5-də Bakıda Qoşulmama Hərəkatının üzvü olan ölkələrin nazirlərinin konfransı keçirilib. Konfransın nəticələrinə əsasən qəbul edilmiş yekun sənədində və Bakı Bəyannaməsində Azərbaycanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair mövqeyinə birgə dəstək ifadə olunub. Avropa Parlamenti dekabrın 12-də "Aİ-nin xarici siyasət və təhlükəsizlik sahəsində ümumi xarici siyasətinin reallaşması haqqında" qətnamə qəbul edib. Qətnamə mövcud münaqişələrin ərazi bütövlüyü, suverenlik və beynəlxalq miqyasda tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tənzimlənməsini təsdiq edib.

Nazir beynəlxalq birliyin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə birmənalı dəstəyinin artdığını xüsusi vurğulayaraq deyib: "Bizim ardıcıl səylərimiz nəticəsində "beynəlxalq miqyasda tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünün dəstəklənməsi" formulundan diplomatiya leksikonunda geniş istifadə olunmağa başlanıb".

Azərbaycan XİN-nin başçısı qeyd edib ki, beş Xəzəryanı ölkənin liderləri tərəfindən 2018-ci ilin avqustunda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya dövlətlərin əməkdaşlıq etməsi üçün unikal imkanlar açıb. Nazir vurğulayıb: "Konvensiyanın imzalanması sözün həqiqi mənasında beş sahilyanı dövlətin xoş məramını nümayiş etdirən tarixi hadisə olub. Ölkəmiz üçün bu sənədin əsas əhəmiyyəti bundan ibarətdir ki, o, dənizin zəngin təbii ehtiyatlarından istifadə olunması üçün sahilyanı dövlətlərin suveren və müstəsna hüquqlarını müəyyən edir. Beləliklə, Konvensiya neft-qaz sənayesi sahəsində, habelə dənizdə digər təsərrüfat-iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində müxtəlif layihələrin reallaşdırılmasının ardıcıllığını və təhlükəsizliyini təmin edir. O, dəniz gəmiçiliyinin sərbəstliyi və təhlükəsizliyi üçün şərait yaradır. Bu da Xəzər dənizində ticarətin və ölkələrimizin iqtisadiyyatlarının inkişafında mühüm rol oynayır. Nazir əlavə edib ki, tarixən Xəzərdə iri layihələrin həyata keçirilməsində cığıraçan ölkə olan Azərbaycan sahilyanı dövlətlərlə əməkdaşlığı bundan sonra da genişləndirməyi planlaşdırır.

E. Məmmədyarov belə bir faktı diqqətəlayiq adlandırıb ki, ölkəmiz 2019-2022-ci illər ərzində Qoşulmama Hərəkatına başçılıq etmək şərəfinə çox qısa müddətdə layiq görülüb. Diplomat deyib: "Qoşulmama Hərəkatının üzvü olan ölkələrin nazirlərinin ötən ilin aprelində Bakıda keçirilən konfransının yekun sənədində bizim xarici siyasət sahəsində bir sıra təşəbbüslərimizə dəstək ifadə olunub, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə müvafiq olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində nizamlanmasının zəruriliyi vurğulanıb. Ölkəmizin Qoşulmama Hərəkatında sədrliyi bizim mövqeyimizin dünyaya çatdırılmasına əlavə imkanlar yaradacaq. Təşkilatın 120 üzvü BMT-nin üzvü olan dövlətlərin üçdəiki hissəsini təşkil edir ki, bu da bu və ya digər qərarın qəbul edilməsinə təsir göstərməyə imkan verir. Bununla belə, Hərəkatda sədrlik ölkəmiz tərəfindən irəli sürülən yeni təşəbbüslərin önə çəkilməsi üçün rahat format ola bilər, onların reallaşdırılması isə dünyada Azərbaycanın siyasi nüfuzunun artmasının rəhni olacaq".

Elmar Məmmədyarov Rusiya agentliyinə müsahibəsində ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı mövzusuna da toxunub. Azərbaycanın Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək istədiyini qeyd edən nazir deyib: "Tərəfdaşlığımızın sonuncu ili Aİ ilə əməkdaşlıq gündəliyinin irəli çəkilməsi baxımından çox məhsuldar oldu. Odur ki, mən diqqəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının sədri Donald Tuskun iştirakı ilə ötən il iyulun 11-də Brüsseldə paraflanan və yekun olaraq oktyabrın 15-də "Şərq Tərəfdaşlığı" ölkələri nazirlərinin Lüksemburq görüşü çərçivəsində təsdiq edilən Azərbaycan və Aİ arasında "Tərəfdaşlıq prioritetləri" sənədi üzərində cəmləşdirmək istəyirəm.

Aİ və Azərbaycan arasında yeni hərtərəfli sazişə dair danışıqlar prosesinin davam etdiyini diqqətə çatdıran diplomat deyib: "Təbii ki, buna müəyyən vaxt lazımdır, çünki bizə də, Aİ-dən olan tərəfdaşlarımıza da ikitərəfli münasibətlərin hüquqi əsaslarını təşkil edəcək, Azərbaycan ilə Aİ arasında qarşılıqlı tərəfdaşlığı müxtəlif istiqamətlərdə uzun müddətə möhkəmləndirəcək ciddi və keyfiyyətli saziş lazımdır. Viza rejiminin sadələşdirilməsi haqqında sazişə gəlincə isə xatırlatmaq istərdim ki, bu saziş artıq bir neçə ildir qüvvədədir. Onun məntiqi davamı Aİ ilə viza rejiminin tam ləğv edilməsi ola bilər. Yəni söhbət viza rejiminin liberallaşdırılmasından gedir. Lakin bu, müəyyən vaxt tələb edir".

# Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələr mövcuddur

***Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 17-də İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələrin olduğunu bildirən Baş nazir hər iki ölkə rəhbərlərinin birgə səyləri nəticəsində bu münasibətlərin daha da inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, əlaqələrimizin genişləndirilməsi, o cümlədən mühüm layihələrin həyata keçirilməsi istiqamətində prezidentlərimiz tərəfindən atılan addımlar ölkələrimizin və xalqlarımızın maraqlarına xidmət edir.

Novruz Məmmədov qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edərək, Məhəmməd Baqerinin ölkəmizə bu səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Məhəmməd Baqeri Azərbaycana səfərindən və keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İranın mövqeyini xatırladan Baş Qərargah rəisi bildirib ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarını işğal edib və ölkəsi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinin tərəfdarıdır.

Baş nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə İran tərəfinə minnətdarlığını ifadə edib.

Məhəmməd Baqeri hər iki ölkənin xalqları arasında böyük tarixə malik əlaqələrin olduğunu bildirib. O, Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanmasının ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranması baxımından əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Aleksandr Duqin: Rusiya Azərbaycanla daha çox yaxınlaşır

***Qazın qiymətləri üzrə yeni razılaşma Rusiya ilə onun ənənəvi tərəfdaşı Ermənistan arasında münasibətlərin çətin vaxtlardan keçdiyinin siqnalıdır.***

AZƏRTAC xəbər verir ki, bunu "Moskva-Bakı" portalına müsahibəsində Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin söyləyib. O qeyd edib ki, Rusiya üçün neft və qaz təkcə iqtisadi deyil, həm də geosiyasi amildir. Əgər Rusiya qazı öz tərəfdaşlarına daha ucuz qiymətə satırsa, bu dolayısı yolla həmin dost ölkələrin dəstəklənməsi anlamına gəlir. Bu dostluq müəyyən öhdəliklər sistemini nəzərdə tutur. "Paşinyanın davranışı qeyri-sabitliyi ilə seçilir. O, Qarabağ probleminin nizama salınması üzrə Ermənistanın keçmiş rəhbərliyinin işğal olunmuş beş rayonun Azərbaycana qaytarılması haqqında vasitəçilərlə, o cümlədən Rusiya ilə birlikdə əldə olunmuş çox ciddi razılaşmalardan imtina etdi. Onları sıfırlayan Paşinyan öz etibarsızlığını nümayiş etdirdi. Həm də Ermənistan baş nazirinin hakimiyyətdə olduğu dövrdə Rusiya ilə münasibətlərdə göstərdiyi bu cür etibarsızlıq halları çoxdur. Paşinyan Ermənistanın tərəfdaşları ilə müxtəlif qarşılıqlı fəaliyyət istiqamətləri üzrə qüvvədə olan razılaşmaların dəyişdirilməsini tələb edib. Ümumilikdə, o, hələ özünü düşmən kimi aparmasa da, artıq dost kimi də davranmır", -deyə Duqin əlavə edib.

Ekspertin sözlərinə görə, Paşinyanın Rusiya ilə nəyin mümkün, nəyin qeyri-mümkün olacağı ilə bağlı anlaşılmazlığı son həddə çatıb...

"Prezident Putin şantaja dözmür. Rusiya Prezidenti tərəfdaşların öz öhdəliklərinə əməl etdiyi, onların sözü ilə əməlinin uyğun gəldiyi və etibarlı olduğu təqdirdə sakit davranır. Belə olan halda Putin əsl dost ola və böyük güzəştlərə gedə bilər. Lakin tərəfdaşın sözü ilə əməli düz gəlmirsə, yaxud ümumiyyətlə heç bir sözü yoxsa, Putin bir neçə dəfə xəbərdarlıq edə bilər, lakin sonradan sərt tədbirlər görür. Əgər Ermənistanın yeni rəhbərliyi özünün bu cür siyasətini davam etdirsə, bu, sadəcə fəlakətlə nəticələnəcək. Putinlə belə oyunlar keçməz. Həlelik isə, biz əsl həqiqətdə Ermənistanla münasibətlərin pisləşdiyini görürük. Bu, xüsusən Azərbaycanla münasibətlərin yaxşılaşması fonunda baş verir. Azərbaycan hakimiyyəti indiki Ermənistan hökumətinin əksinə olaraq davamlılıq, öz siyasətində ardıcıllıq və sağlam təfəkkür nümunəsi göstərir. Bu gün Azərbaycanın Rusiyanın Cənubi Qafqazda əsas strateji tərəfdaşı və müttəfiqi kimi öz mövqeyini möhkəmlətməsi, həmçinin Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı üzrə bu cür müsbət proseslərin fonunda Paşinyanın Ermənistanın Qərbin himayəsinə keçəcəyi ilə bağlı Putini şantaj etməsi mümkün olan strategiyaların ən yanlışıdır. Paşinyan Rusiya ilə münasibətlərdə, Avrasiya geosiyasətində açıq-aşkar naşıdır. Ola bilər ki, öz mövqeyində düzəlişlər etsin. Mən buna çox ümid edirəm. Lakin hələ ki, bunu görmürəm", -deyə Duqin bəyan edib.

Duqin qazla yanaşı, Moskvanın başqa təsir vasitələri olduğunu da vurğulayıb...Məsələn, Qarabağ münaqişəsinin nizama salınması. "Putin Ermənistana deyə bilər: "Baxın, biz həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişik, Qarabağı hər zaman onun



bir hissəsi hesab etmişik. Biz Qarabağ münaqişəsinin müharibə yolu ilə həllinin qəti əleyhinəyik, amma gəlin işğal olunmuş Dağlıq Qarabağın bütün ərazisində Azərbaycanın konstitusion qaydalarını bərpa edək. Əgər Rusiya üçün də özünün Cənubi Qafqazda sülhməramlı missiyasının səmərəliliyinin nümayiş etdirilməsi baxımından vacib olan Dağlıq Qarabağa bitişik olan 5 rayonun könüllü yolla qeyd-şərtsiz qaytarılması üzrə razılaşmaları reallaşdırmaq istəməsəniz, onda gəlin başqa istiqamətdə irəliləyək...Rusiyanın bu tezisi səsləndirməsindən sonra şərait qorxulu istiqamətdə dəyişəcək. Və Rusiyadakı heç bir böyük erməni diasporu Paşinyanın köməyinə çata bilməz", -deyə ekspert əlavə edib.

Rusiyalı ekspert diqqətə çatdırıb ki, bu gün Azərbaycan "Xalq cəbhəsinin" vaxtında olduğu kimi rusofob, Qərbin təsiri altında özünü itirmiş ölkə deyil. Azərbaycan Respublikası indi Rusiya ilə yaxınlaşan möhkəmlənmiş, sülhpərvər və çox sürətlə inkişaf edən dövlətdir.

A.Duqin Rusiyanın Azərbaycanla daha çox yaxınlaşdığını, ölkələr arasında strateji tərəfdaşlığın gücləndiyini xüsusi vurğulayıb. "Vladimir Putin Prezident İlham Əliyevlə şəxsi əlaqələrini daha da möhkəmləndirir. Biz İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanla münasibətlərdə ciddi yanaşma və məsuliyyət görürük. Putinlə dostluğun sirri təkcə simpatiyada deyil, həm də etibarlılıq və öz hərəkətlərindəki ardıcıllıqdadır. Rusiya İlham Əliyevin sözlərində və əməllərində dostluğun rəhnini görür. Paşinyanın söylədikləri əməllərinə uyğun olmadıqda isə bunun nəticələri avtomatik olaraq Rusiya və Ermənistan münasibətlərinin bütün strukturuna təsir edir. Yəni xalqlar arasında münasibətlərlə siyasəti qarışıq salmaq olmaz. Siyasət xalqlar arasında münasibətlərə üst-üstə düşdükdə, bunun çox böyük səmərəsi olur. Hazırda biz bunu Azərbaycanla münasibətlərdə müşahidə edirik - xalqlarımız dostluq edir, prezidentlər dostdurlar və bütün bunlar Azərbaycanın Cənubi Qafqazda mövqeyinin güclənməsinə, həmçinin Rusiyanın mövqeyinin möhkəmlənməsinə şərait yaradır", -deyə ekspert diqqətə çatdırıb.

Duqinin fikrincə, bu gün Ermənistan xoş niyyət nümayiş etdirməli, Qarabağ probleminin həllinə səy göstərməli və Rusiya, Türkiyə, Azərbaycan və İranın, bəlkə də tədricən Gürcüstanın da timsalında formalaşan Avrasiya balansına qoşulmalıdır. Putinin təklifi məhz bundan ibarətdir və bu, prezidentlər Vladimir Putin, İlham Əliyev və Serj Sarkisyanın Qarabağ nizamlanması üzrə bundan əvvəlki mərhələdə əldə etdikləri razılaşmanın mahiyyətidir.

Ekspert qeyd edib: "Lakin Paşinyan deyir ki, yox-yox-yox, mən bu barədə heç nə bilmirəm, heç bir şey eşitməmişəm, bütün bunların-sizin geosiyasətin mənim üçün heç bir əhəmiyyəti yoxdur. Mənim üçün qazın qiymətini endirin, yoxsa ərazimizdə sizin hərbi bazanız olmayacaq. Lakin bunlar heç bir halda danışılası sözlər deyil.

Hesab edirəm ki, bu məsələdə başlıca məqam Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlidir. Moskva bu məsələdə təkidlidir və iki qədim gözəl xalqın münasibətlərinə dair tarixi məntiqdən çıxış edir. Bu mövqeyin kökündə duran bütün fəaliyyətləri dəstəkləmək lazımdır. Lakin, təəssüf ki, indiyədək müəyyən dərəcədə qorunub saxlanılan status-kvo nəticələrin heç də bəyanatlardan uzağa getmədiyini söyləməyə əsas verir. Jestlər, konkret addımlar lazımdır. Nizamlanma prosesi davam etməlidir və hamı onun nəticələrini görməlidir".

A.Duqin daha sonra bildirib: "Münaqişənin sülh yolu ilə nizamlanmasına başlamaq üçün Ermənistan 5 rayonu qaytarmalıdır. Sonra daha 2 rayon qaytarılır. Bunu Ermənistanın güzəşti adlandırmaq olmaz. Axı Ermənistan dünyaya açılacaq, beynəlxalq iqtisadi layihələrdə iştirak imkanı əldə edəcək, iqtisadiyyatını dirçəltməyə başlayacaq. Azərbaycan isə Rusiya, İran, Türkiyə və digər regional güclərin nəzarəti altında blokadanı götürür, azərbaycanlıların və ermənilərin qarşılıqlı fəaliyyəti, onların dinc yanaşı yaşaması istiqamətində proseslər başlayır. Azərbaycan, Ermənistan, Rusiya, İran və Türkiyə buna səy göstərməlidirlər. Əsas hədəf - sülhdür. Əgər 2019-cu ildə nizamlanma prosesində hərəkətlənmə olsa, bu, böyük qələbə olacaq. Bunun üçün beynəlxalq şərait də mövcuddur. Rusiya və Azərbaycan buna hazırdırlar. İndi söz Yerevanındır. Lakin Paşinyan, gördüyümüz kimi, Rusiya ilə münasibətləri korlayır. Əgər o, belə davam edərsə, nizamlanma üzrə sülh prosesi baş tutmayacaq".

Ekspert Dağlıq Qarabağın Azərbaycan icmasının nümayəndələri ilə görüşündən də bəhs edib: "Mən Azərbaycan ziyalıları ilə görüşdüm. Onlar çox gözəl insanlardır. Pianoçu Fərhad Bədəlbəyli - Qacar şahları sülaləsinin törəməsi, görkəmli Bədəlbəyli nəslinin davamçısı. Münaqişə nəticəsində yaşadıqları iztirablara rəğmən onlar məndə intiqam almaq istəyən inşalar təəssüratı yaratmadılar. Onların bir çoxu münaqişə vaxtı yaxınlarını, hər şeylərini itiriblər, lakin nifrət hissi ilə yaşamırlar. Hətta deməliyəm ki, ən başından onlarda diplomatlara xas olan bəzi keyfiyyətləri gördüm. Onlar sadə insanlar deyillər. Bu ziyalılar öz yurdlarına qayıtmağı ürəkdən arzulayan və bütün azərbaycanlı qaçqınların doğma evlərinə geri dönməsi üçün əllərindən gələni edən Azərbaycan elitasının bir hissəsidirlər.

Mən şahidi oldum ki, Azərbaycan icmasından olan qaçqınlarda ermənilərə qarşı çox düşünülmüş, olduqca ayıq-sayıq və sağlam münasibət var. Onlar iki xalqın yan-yana birlikdə yaşamasının zəruriliyindən danışırlar və başa düşürlər ki, hər iki xalq artıq həddindən çox itkilər verib. Bu gün Dağlıq Qarabağın Azərbaycan icması erməni icmasına əlaqələri bərpa etməyi təklif edir. Axı perspektivdə hər iki xalq münaqişənin dinc yolla həllində maraqlı olanların hamısına sübut etməli olacaq ki, onlar sülh şəraitində dinc yanaşı yaşaya bilərlər".

*Fəridə Abdullayeva*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Moskva*

## Ermənistan ordusunda qiyam: Zabitlər də etiraza qalxdı!



Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən düşmən ordusu bölmələrinin təminatında mövcud problem və çatışmazlıqlar artıq zabitlərin də etirazına səbəb olur.

AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, buna səbəb tez-tez əsgərlərin yeməkdən zəhərlənməsi, digər təminat növlərinin çatışmaması və keyfiyyətinin aşağı olmasıdır. Eyni zamanda, məlumatlarda qeyd olunur ki, kütləvi zəhərlənmə halları və hərbi əmlakın keyfiyyətsizliyi səbəbindən digər hadisələr baş verərkən bütün məsuliyyətin zabitlərin üzərinə atılması və onların məsuliyyətinə cəlb edilməsi də hərbçilər arasında böyük narazılıqla qarşılanır.

Sosial şəbəkədə yayılan bir paylaşımda bildirilir ki, işğal olunan Madagiz yaşayış məntəqəsində yerləşdirilən düşmən ordusunun hərbi hissəsində ərzaq xidmətinin rəisi vəzifəsində xidmət edən Samvel Beqleryan ziyafət məclisində yaxın qohumlarına ərzaq çatışmazlığından gileylənərək tədarük olunan ərzağın köhnə, xarab, çürük və əksər hallarda istifadə müddəti bitmiş olduğunu deyib.

## Litva Prezidenti Azərbaycan səfirinin etimadnaməsini qəbul edib



Litvanın Prezidenti Dalya Qribauskayte Azərbaycanın bu ölkədəki səfiri Tamerlan Qarayevin etimadnaməsini qəbul edib. Görüş zamanı Prezident və yeni təyin olunmuş səfir ikitərəfli münasibətlərə, iqtisadi əməkdaşlığa, tələbə mübadiləsinə dair məsələləri, həmçinin Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında əlaqələrin inkişafı perspektivlərini müzakirə ediblər.

AZƏRTAC xəbər verir ki, Litva Prezidenti Azərbaycanın bir çox sahələr üzrə Avropanın mühüm tərəfdaşı olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, Aİ və Azərbaycan arasında ikitərəfli dialoqu daha da genişləndirəcək yeni saziş üzrə danışıqlar prosesi davam edir. Dalya Qribauskayte vurğulayıb ki, Litva Azərbaycanla iqtisadi əlaqələri, xüsusən informasiya texnologiyaları, turizm, qida sənayesi, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığı gücləndirməyə hazırdır.

## Ən çox hansı ölkədən məhsul idxal edirik?




Azərbaycan keçən il ən çox Rusiyadan məhsul idxal edib. Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, ötən il ölkəyə ən çox Rusiya, Türkiyə və Çindən məhsul idxal olunub. Rusiyadan idxalın dəyəri 1 milyard 885 milyon 164 min ABŞ dolları, Türkiyədən 1 milyard 576 milyon 864 min dollar, Çindən isə 1 milyard 196 milyon 673 min dollar olub.

## Dövlət Proqramı çərçivəsində təhsil alan şəxslərlə bağlı mövcud elektron bazalar təkmilləşdiriləcək



"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində təhsil alan şəxslərlə bağlı mövcud elektron bazalar mütəmadi olaraq təkmilləşdiriləcək və onlardan istifadə imkanları (elektron arayışlar, elektron sənəd dövriyyəsi və s.) genişləndiriləcək. AZƏRTAC xəbər verir ki, müvafiq Dövlət Proqramında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qeyd olunan məsələlər üzrə icraçı orqanlar kimi müəyyən edilib.

Xatırladaq ki, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunub.



# Cənubi Qafqazda yeni reallıq...

## Yaxud, Azərbaycan regionun təhlükəsizliyinə və inkişafına mühüm töhfələr verir

***Azərbaycanın xarici siyasət prioritetlərinin həyata keçirilməsi baxımından ötən il uğurlu oldu. İl ərzində Azərbaycan beynəlxalq əlaqələrini daha da genişləndirdi, regional və dünya miqyasında ölkəmizin milli maraqlarının effektiv şəkildə təmin edilməsi istiqamətində qətiyyətli addımlar atdı. Prezident İlham Əliyevin xarici səfərləri, iştirak etdiyi beynəlxalq toplantılar Azərbaycanın siyasətinin kifayət qədər uğurlu, düşünülmüş və çoxşaxəli olduğunu, dövlətin və xalqın maraqlarına layiqincə xidmət etdiyini göstərir. Hər bir səfər Azərbaycanın ayrı-ayrı dövlətlərlə və təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da genişlənməsinə təkan verdi. Elə bu il də praqmatik və rasional siyasətin davam etdirilməsi isbatlayır ki, Azərbaycanın xarici siyasəti çoxşaxəli və müstəqildir. Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan dünya birliyindəki mövqeyini getdikcə möhkəmləndirir və daha nüfuzlu söz sahibinə çevrilir.***

Əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi balanslı siyasət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı reallaşdırılan hücum diplomatiyası bölgədə yeni reallığın yaranmasına səbəb olub. Məhz, Azərbaycanın həyata keçirdiyi qlobal iqtisadi layihələr, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə formalaşan yeni əməkdaşlıq formatları regionda iqtisadi və sosial rifahın, təhlükəsizlik və qarşılıqlı səmərəli əməkdaşlıq mühitinin yaranması və inkişafına mühüm təsir göstərir.

Xüsusi məqam kimi qeyd edilməlidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional və praqmatik siyasətlə ölkəmiz qlobal güclərin yürütdüyü təzyiq və təcrid siyasətinə qoşulmadı, İran və Rusiya ilə qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq əlaqələrini, dostluq və mehriban qonşuluq siyasətini daha da gücləndirdi.

Məsələn, Azərbaycan və Rusiya Prezidentləri 2018-ci ildə 6 dəfə görüşüblər, ölkə başçıları arasında mövcud olan şəxsi dostluq münasibətləri iki ölkə arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalına müsahibəsində deyib ki, bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir: "Biz mehriban qonşu və etibarlı dostuq. Bu, dəfələrlə sübut olunub və budur, bu yüksək etimad səviyyəsi, ilk növbədə, həm də siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir. Siz doğru qeyd etdiniz, mən Prezident Vladimir Vladimiroviç Putinlə altı dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim çərçivəsində və onun Azərbaycana səfəri çərçivəsində, eləcə də beynəlxalq tədbirlərdə görüşmüşəm. Bu görüşlərdən hər biri nəticə verib. Biz əmtəə dövriyyəsinin artırılması məsələsinə çox ciddi yanaşmışıq. Qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlərinin inkişafı üzrə yol xəritələri işlənib hazırlanıb".

Rusiya Prezidenti Vladimir Putin isə vurğulayıb ki, iki ölkə arasında münasibətlər yeni inkişaf mərhələsindədir və çox uğurla inkişaf edir. Ötən il ərzində əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni, bu, çox yaxşı artım tempidir və bu proses dəstəklənməlidir: "Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir" - deyə Vladimir Putin vurğulayıb.

Azərbaycan İranla da əlaqələrini daha da genişləndirir, ili ölkənin rəhbərlirə arasında isti münasibətlər qarşılıqlı əməkdaşlığın inkişafına pozitiv təsir göstərir. Azərbaycan İrana qarşı təcrid siyasətinə qoşulmadı, qonşu ölkə ilə bir çox sahələrdə əməkdaşlıq əlaqələrini gücləndirdi, ən çətin dövrlərdə Tehrana dəstəyini əsirgəmədi. Azərbaycan və İran Prezidentlərinin qarşılıqlı səfərləri qarşılıqlı əlaqələri daha da gücləndirdi. Ölkələr bir çox iqtisadi layihələr çərçivəsində sıx əməkdaşlıq edirlər. Təsadüfi deyil ki, yanvarın 16-da İranın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqeri bildirib: "İran Qarabağ torpaqlarını Azərbaycan torpaqları hesab edir və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır". Bu, İranın yüksək vəzifəli nümayəndəsinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu günə kimi verdiyi ən mühüm bəyanat hesab oluna bilər.

İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə də Trend-ə müsahibəsində bildirib ki, İran və Azərbaycan arasında münasibətlər yüksək səviyyədədir: "İran və Azərbaycan arasında siyasi əlaqələr baxımından 2018-ci ili analoqu olmayan il adlandırmaq olar. Çox uğurlu il oldu. Ötən il İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin bir neçə dəfə Azərbaycana səfər etməsi rəsmi Tehranın Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə böyük maraq göstərməsindən xəbər verir və ümidvarıq ki, 2019-cu ildə də əlaqələr bu şəkildə davam edəcək".

Azərbaycan müstəqillik illərində Türkiyə ilə də münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəltməyə nail olmuş, siyasi, iqtisadi, mədənivə digər sahələrdə qarşılıqlı əlaqələrin daha da intensivləşməsi "bir millət iki dövlət" şüarına yeni məzmun gətirmişdir. Bu gün Azərbaycan və Türkiyə arasında olan münasibətlər dünya miqyasında nümunə olaraq təqdim edilir. Azərbaycan ilə Türkiyə münasibətlərini möhkəmləndirən daha bir amil isə qarşılıqlı iqtisadi əlaqələrin getdikcə dərinləşməsidir. Məhz, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi proyektlər, xüsusən də Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələr Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin çox uğurla inkişaf etdiyinin göstəricidir.

Azərbaycan Gürcüstanla və Avropa İttifaqı ölkələri ilə də strateji tərəfdaşlıq əlaqələri qurmuş, həyata keçirilən transmilli layihələr ölkələrin inkişafı, təhlükəsizliyinin təmin edilməsində olduqca mühüm faktora çevrilmişdir.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan region ölkələri ilə əlaqələrini inkişaf etdirməklə, onları strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməklə bölgədə təhlükəsizliyin bərqərar olmasına, inkişafa mühüm töhfə vermiş və bu zəmində formalaşan yeni reallığın müəllifinə çevrilmişdir.

Digər tərəfdən Azərbaycan işğalçı Ermənistana qarşı təcrid siyasətiniuğurla davam etdirmiş, bu ölkənin siyasi və iqtisadi sisteminin, 20 ildən artıqdır ki hakimiyyəti zəbt etmiş xunta rejiminin çökməsində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, bu gün Azərbaycanın region ölkələri ilə strateji tərəfdaşlığı inkişaf edir, onun beynəlxalq nüfuzu artır, Ermənistanın xarici siyasətində isə ciddi geriləmə müşahidə olunur.

Ermənistanda hakimiyyət dəyişikliyi ilə əlaqədar bu ölkənin xarici siyasətində müşahidə olunan ciddi fəsadlar, o cümlədən də onun Qərb üçün İran və Rusiyaya qarşı platformaya çevrilməsi təhlükəsi rəsmi Moskva və Tehranı öz ənənəvi siyasətini bir daha nəzərdən keçirməyə məcbur edir. Bu gün artıq reallıqdır ki, Ermənistanda artan rusofobiya Rusiyanın siyasi dairələrində Ermənistana qarşı antipatiya formalaşdırıb. Elə bu səbəbdəndir ki, Rusiya Ermənistana satdığı təbii qazın qiymətini yüksəltdi, hətta Paşinyanın yalvarışlarına baxmayaraq Moskva Yerevana güzəştə getmədi. Eyni mənfi situasiya Ermənistan-İran münasibətlərində də müşahidə edilməkdədir. İranın Ermənistanla bəzi iqtisadi layihələrdən faktiki olaraq imtina etməsi deyilən fikrin əyani sübutudur.

Göründüyü kimi, bu gün regionda yeni reallıq formalaşın. Bu reallıq isə ondan ibarətdir ki, bir tərəfdə güclü, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmuş və bu əlaqələri strateji tərəfdaşlıq səvyyəsinə yüksəltmiş Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi uğurla inkişaf edir. Digər tərəfdə isə öz ənənəvi portnyorlarını itirən, küncə sıxılmış, sosial və iqtisadi kataklizmlər yaşayan, çıxılmaz vəziyyətə düşmüş Ermənistan dayanıb. Və əlbəttə ki, bu cür siyasi və iqtisadi reallıq, daha doğrusu Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin yaratmışdır. Azərbaycan ictimaiyyəti artıq əmindir ki, 2019-cu il Dağlıq Qarabağ münaqişəsinin həlli baxımdan əhəmiyyətli il olacaqdır.

***"Səs" Analtik Qrup***

# Nazim Şükürov: "İnnovativ inkişafdan daha çox alimlərimiz qazanacaq"

*Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkının direktoru, iqtisad üzrə fəlsəfə doktoru Nazim Şükürovun SİA-ya müsahibəsi*

***- Azərbaycanda iqtisadiyyatla bağlı yeni inkişaf modeli müəyyənləşdirilib. AMEA-da yeni iqtisadi modelə keçidlə bağlı hansı işlər görülür?***



- Azərbaycan Respublikasında yeni inkişaf modeli ölkə başçısı tərəfindən müəyyənləşdirilib. Bu inkişaf modeli də dövlət idarəetmə orqanları, iqtisadiyyatın digər strukturları, elm və təhsil müəssisələri tərəfindən həyata keçirilməli olan və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il dekabrın 6-da imzalanan "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin" təsdiq edilməsi haqqında Fərmanından irəli gələn məsələlərdir. Azərbaycan zəngin təbii ehtiyatlara malik dövlətdir. Neft və qaz ehtiyatlarımız olsa da, iqtisadiyyatımızın bu amildən asılılığını azaltmaq və qeyri-neft sektorunu daha da inkişaf etdirmək üçün biz ilk növbədə mövcud olan təbii sərvətlərimizdən səmərəli istifadə etməklə bilikli iqtisadiyyata keçməli, yeni iqtisadi model qurmalıyıq. Bu, iqtisadi inkişafın keyfiyyətcə yeni formasıdır. Bundan irəli gələrək Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fərmanla müəyyən edilən bir çox dövlət, mərkəzi icra orqanlarına, iqtisadi strukturlara, elm və təhsil müəssisələrinə müəyyən tədbirlər planı ilə bağlı tapşırıqlar verilmişdi. Eyni zamanda Azərbaycan Respublikası Milli Elmlər Akademiyasına da bu Fərmandan irəli gələn tapşırıqlar verilərək, akademiya tərəfindən biliyə əsaslanaraq, keyfiyyətcə yeni iqtisadi modelə keçidlə bağlı Rəyasət Heyətinin qərarı ilə tədbirlər planı hazırlanmışdı. Bu tədbirlər planı üzrə AMEA-da daimi komissiya fəaliyyət göstərir və komissiya strateji yol xəritələrindəki tapşırıqların icrası üzrə və ondan irəli gələn təklifləri ümumiləşdirərək onların əsasında praktiki işləri həyata keçirir.

***- Bir neçə gün bundan öncə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında da Sərəncam imzaladı. Sərəncama əsasən AMEA-ya da müəyyən tapşırıqlar verildi. Hazırda işlər nə yerdədir?***

- Azərbaycan Prezidenti İlham Əliyevin 10 yanvar tarixində ölkəmizdə innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında imzaladığı Sərəncam bilikli iqtisadi inkişaf modelinə keçidlə bağlı işlərin koordinasiya edilməsi ilə əlaqədardır. Respublikada innovativ inkişaf üzrə hər bir nazirlik, komitə, ölkə başçısının fərmanı ilə yaradılan mərkəzi icra hakimiyyəti orqanlarının yaratdığı publik hüquqi şəxslər, dövlət ali təhsil müəssisələri, dövlət mülkiyyətində olan və paylara nəzarət zərfinin dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən innovativ inkişafla əlaqədar həyata keçirilən işlərin koordinasiyası üzrə təşkilati məsələləri özündə əks etdirən sərəncam gələcəkdə əlaqəli işləri təşkil etməyə sövq edir. Bununla bağlı AMEA-ya da müəyyən tapşırıqlar verilib. Sərəncama əsasən Nazirlər Kabinetinə ölkədə mövcud olan qabaqcıl texnoloji avadanlıqlarla təchiz edilən elmi tədqiqat mərkəzlərinin və laboratoriyaların reyestrinin tərtib olunması və aparılması qaydasının Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə hazırlanaraq Dövlət başçısı ilə razılaşdırılmaqla 3 ay müddətinə təsdiq edilməsi nəzərdə tutulub. Bir çox nazirlik və qurumlarda elmi tədqiqat institutları, mərkəzlər, onların laboratoriyaları və tədqiqat infrastrukturları olsa da, bu günə qədər onların icmallaşmış şəkildə reyestri hazırlanmayıb. Lakin sərəncamdan sonra respublikada mövcud olan tədqiqat institutlarının, infrastrukturlarının bütün məlumatları, onlarda mövcud olan avadanlıqlar haqqında, tədqiqat işlərinin istiqaməti barədə lazımi, zəruri informasiyalar reyestrdə əks olunacaq ki, bu da gələcəkdə tədqiqat qurumlarına, laboratoriyalara hansı layihələr üzrə tədqiqat işlərinin aparıldığı, perspektivləri, gələcəkdə iqtisadiyyatda onların hansı istiqamət üzrə tətbiqi, səmərəliliyi və perspektivinin nədən ibarət olduğunu, lazım olan investisiya məbləği, biznes planı haqqında respublikada ümumi informasiyanın mövcudluğuna imkan yaradacaq. Sərəncamdan irəli gələrək AMEA Nazirlər Kabineti ilə birgə reyestri tərtib edərək, onun aparılma qaydasını müəyyənləşdirəcək. Məlumatlar innovativ inkişaf üzrə görülən işlərdə istifadə olunacaq ki, bu da Azərbaycanın bilikli iqtisadiyyata, yeni inkişaf modelinə keçməsinə bir vasitə olacaq. Hazırda Nazirlər Kabineti ilə AMEA arasında bu istiqamətdə işlərə başlanılıb. AMEA-nın prezidenti akademik Akif Əlizadə Sərəncamın icrası ilə bağlı tapşırıqlar verib və nəzərdə tutulan işlər qısa müddətdə həyata keçiriləcək.

***- İnnovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsinə daha hansı strukturlar cəlb ediləcək?***

- "Elm haqqında" qanuna əsasən AMEA respublikada vahid elm üzrə siyasəti həyata keçirən dövlət təşkilatıdır. AMEA bütün nazirlik və komitələrin nəzdində olan tədqiqat institutları, mərkəzləri, laboratoriyalar haqqında məlumatlanmaq üçün onlara sorğu göndəriləcək, qısa müddət ərzində məlumatlar icmallaşdırılacaq. Bununla da biz həmin mərkəzlərdə mövcud olan avadanlıqlar, onların hansı tədqiqat işlərində istifadəsi haqqında, gələcəkdə sənayeləşdirilən və kommersiyalaşa bilən layihə, tədqiqat proqramı və ya predmeti haqqında məlumatları əldə edəcəyik. Bu məlumatlar Nazirlər Kabineti ilə birlikdə aidiyyatı şöbə, qurum və idarələr tərəfindən toplandıqdan sonra onların reyestri və reyestrin aparılması qaydası hazırlanacaq.

***- Bilikli iqtisadiyyatın formalaşmasında qeyri-neft sektorunun payı necə olacaq?***

- Ümumiyyətlə, Azərbaycan qlobal iqtisadiyyata addımlayıb. Neft və qaz ölkə iqtisadiyyatında lokomotiv rolunu oynayır. Hazırda biz bu sektorda ən yüksək keyfiyyətə malik olan neft məhsulları əldə edirik. AMEA-nın Yüksək Texnologiyalar Parkında iki rezident fəaliyyət göstərir ki, birində 70, digərində isə 40-dan çox mühərrik, mineral və sürtgü yağları istehsal edilir. Alimlərimizin iştirakı ilə keyfiyyətcə dünya standartına cavab verən neft məhsulları əldə edə bilmişik. Bu neft sektoruna aid olsa da, bura bilik tətbiq edərək yüksək nəticələr əldə etmək mümkün olmuşdur. Biz bilik və innovativ layihələri qeyri-neft sektoruna yönəldərək onun inkişafına çalışırıq. Hazırda ölkəmizdə bilikli, rəqəmsal iqtisadiyyat formalaşır. Bu səbəbdən də elmtutumlu, idxal əvəzedici, ixraca yönəlik məhsulların istehsalı ilə bağlı iqtisadi seqmentlər formalaşmalıdır. Burada da Azərbaycan alimlərinə istinad böyükdür. Alimlərimiz ölkə başçısı tərəfindən tapşırılan məsələlərlə əlaqədar əlindən gələnlərini əsirgəməyəcəklər.

***- Alimlərimiz yeni iqtisadi modeldən nə qazanacaq?***

- Bu işdə bəlkə də ən çox qazanan məhz alimlərimiz olacaq. Çünki alimlər ideya, ixtira hər hansı elmi tədqiqat və tapşırıq əsasında öz ixtiralarını patentləşdirirlər. "Patent haqqında" qanuna uyğun olaraq alimlərin ixtiraları patentləşdikdən sonra onların gələcəkdə sənayeləşdirilməsi dövlət tərəfindən dəstəklənəcək. Ölkə başçısı tərəfindən imzalanan sərəncam innovativ inkişafın dəstəklənməsi ilə əlaqədar görülən işlərə nəzarət mexanizmi yaratmaqla yanaşı, qurumların innovativ inkişafa, hətta startap fəaliyyətinə dəstəklə bağlı hesabatlanma mexanizmini yaradır ki, bu da qurumların məsuliyyətini artırır. Burada hətta müəyyən qurumların mənfəətinin bir hissəsinin innovativ layihələrə yönəldilməsi də nəzərdə tutulub ki, bu da alimlərin ideyasının kommersiyalaşmaya qədər olan mərhələdən gəlir əldə etməsinə əməli imkan yaradır.Yəni alimlərimiz yalnız ideya ixtira və patent səviyyəsində deyil, onun prototip, sənaye və sonda da kommersiyalaşma səviyyəsinə çatmasından qazanc əldə edə biləcəklər.

Bununla bağlı AMEA-nın prezidenti, akademik Akif Əlizadənin də xüsusi qərarı var. Belə ki, alimlər son kommersiya mərhələsində ixtiralarından yüksək faiz nisbətində qazanc əldə etmiş olacaqlar.

***- Bilikli iqtisadiyyata keçmək üçün kadr potensialımız yetərlidirmi?***

- Kadr potensialı əsas məsələdir. Çünki, iqtisadiyyatın zirvəsində də insan amili dayanır. Azərbaycanda peşəkar kadrlar var. Lakin biz onları yeni iqtisadi modelin tələblərinə uyğunlaşdırmalı, onlarda innovativ düşüncəni təşviq etməliyik. Hər kəs bilməlidir ki, yeni inkişaf nəticəsində həyat tərzi, həyat keyfiyyəti daha da yaxşılaşacaq, qazancı daha da artacaq. Bu səbəbdən də gənc alimlərimizdə, iqtisadi strukturlarda çalışanlarda innovativ bacarıqları genişləndirməli, bu məsələnin inkişafına yönəltməliyik. Bu işlərin həyata keçirilməsi zaman tələb etsə də, burada dayanmaq olmaz. Dinamik inkişafa gedən qlobal iqtisadiyyatda öz layiqli yerimizi tutmalıyıq. Bütün görülən işlərdə məqsəd insanların maddi, rifah halının yaxşılaşdırılmasıdır.

***- Ölkə başçısının innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi ilə bağlı sərəncamından sonra AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP) fəaliyyətini necə davam etdirəcək?***

- Siz bilirsiniz ki, Yüksək Texnologiyalar Parkı (YTP) Prezident İlham Əliyevin 2016-cı il 8 noyabr tarixli sərəncamı ilə Milli Elmlər Akademiyasının tərkibində yaradılıb. YTP 21 hektar ərazisi olan vergi, gömrük güzəştli xüsusi iqtisadi zonadır. Ərazi tam infrastruktur - qaz, işıq, su kommunikasiya, internet, telefon və digər şəraitlə tam şəkildə təmin olunub. YTP təşkilatlandıqdan sonra uzunmüddətli layihələr üzrə 10 sayda texnoparkın rezidenti fəaliyyət göstərir. Fəaliyyət iki - həm mülki, həm də müdafiə qüdrətinin artırılması istiqamətində həyata keçirilir. Qısa zamanda münbit yaradılan şərait investisiya cəlbedici formatına gətirib çıxarıb. Rezidentlər bizə layihələri ilə müraciət edir, yaradılan ekspertlər şurası tərəfindən onlar dəyərləndirilir, gələcək perspektivliyi, elmtutumluluğu, innovasiya, ixrac yönümlülüyü, idxal əvəzediciliyi məsələləri araşdırıldıqdan sonra qərar qəbul edilir. Hesab edirik ki, YTP Cənab Prezidentin göstərişi ilə olan məsələlərdə daha fəal iştirak edəcək, investisiyanın cəlb ediciliyi üçün daha əlverişli qanunvericilik layihə təkliflərini verəcək. Bununla yanaşı YTP innovativ layihələrin həyata keçirilməsi üçün biznes aləmi ilə təmas quraraq onların əlverişli platforma üzərindən fəaliyyət göstərməsinə dövlət dəstəyini həyata keçirəcək. Eyni zamanda AMEA-nın elmi tədqiqat institutlarında çoxlu sayda, universal və fərqli istiqamətlərdə tədqiqat işləri aparılır. Alimlər üçün tədqiqat, sınaq işlərinin aparılması, prototiplərin yaradılması və ideyalarını gələcəkdə kommersiyalaşdırması üçün burada münbit şərait yaradılıb. YTP elmlə biznesin toqquşduğu məkan olduğu üçün gələcəkdə alimlərimizin böyük vəsait qazanması üçün geniş imkanlar yaradılır. Bu da büdcə asılılığını getdikcə minimuma endirəcək.

**Nailə Məhərrəmova**

# Avropa Parlamentinin riyakarlıq və qərəz simasızlığı - Sorosdan Harmsa qədər...

## *“Mehman Hüseynovla bağlı təcili qətnamə”nin çirkin məqsədləri bəlli oldu!*

***Sirr deyil ki, bloqer Mehman Hüseynovla bağlı bəlli Avropa və Qərb təşkilatları Azərbaycan dövləti əleyhinə fəaliyyətlərini davam etdirirlər və bu fəaliyyətin pərdə arxasında dayanan əsas tərəflərdən biri də Cors Sorosdur. Məhz yanvarın 17-də Avropa Parlamenti tərəfindən qəbul olunmuş “Mehman Hüseynovla bağlı təcili qətnamə”nin həmmüəlliflərindən biri olan Rebekka Harms da bilavasitə Sorusun təsiri altında şəxsdir və maraqlıdır ki, o bunu nəinki inkar, hətta açıq şəkildə etiraf edir.***



Belə ki, R.Harmsın C.Sorosla sosial şəbəkələrdə çoxsaylı yazışmaları, şəkilləri də mövcuddur. Məhz bu baxımdan, həm də ilk növbədə belə qənaətə gəlmək mümkündür ki, sözügedən qətnamə M.Hüseynov amilindən istifadə edilən, həmçinin, qəsdən şişirdilən, habelə Azərbaycana qarşı planlaşdırılan məkrli ssenarinin uğursuz nəticəsidir.

### AP tərəfindən nə Milli Məclisə, nə Azərbaycan XİN-nə, nə də Azərbaycanın Brüsseldəki Səfirliyinə hər hansı müraciət daxil olmayıb

Digər ilginc nüans isə budur ki, qeyd edilən tarixdə, yəni adıçəkilən qərəzli qətnamə qəbul edilərkən, onun qəbulu istiqamətində müzakirələrdə çıxış edən AP üzvü, eləcə də, Avronest Parlament Assambleyasının həmsədri R.Harms (Almaniya, Yaşıllar qrupu) məsələ ilə bağlı guya azərbaycanlı həmkarları ilə təmaslar qurmağa çalışdığını iddia edib. Maraqlıdır ki, AP-də keçirilən təcili dinləmələr ilə bağlı AP tərəfindən nə Milli Məclisə, nə Azərbaycan XİN-nə, nə də Azərbaycanın Brüsseldəki Səfirliyinə hər hansı müraciət daxil olmadığı bildirilir. Bu isə, R.Harmsın heç də həqiqəti söyləmədiyini, onun sadəcə yalan və qərəz üzərində danışdığını sübuta yetirir.

Daha bir məsələ isə, bədnam müzakirələr zamanı Azərbaycanda insan hüquqlarından dəm vuran AP üzvlərinin ən vacib amilə toxunmamalarıdır. Daha dəqiq desək, onların heç biri öz çıxışlarında fundamental hüquqları pozulmuş 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün yurd-yuvalarından didərgin salınması, erməni işğalçıları tərəfindən qarşılaşdıqları vəhşiliklər barədə bir kəlmə də olsun danışmayıblar və ümumiyyətlə yada salınmayıblar. Əlbəttə ki, belə məqamda biz, AP-üzvlərinin riyakarlıqlarının, ikiüzlülüklərinin şahidlərinə çevrilmiş oluruq!

### Sesilia Malstrom öz nitqində Aİ-nin məsələni yaxından izlədiyini və Azərbaycan hökumətinin bu məsələdə əməkdaşlıq etdiyini vurğulayıb

Onu da qeyd edək ki, sözügedən müzakirələrdə çıxış edən (müzakirələrdə iştirak edən Aİ-nin ən yüksək səviyyəli rəsmisi) Avropa İttifaqının Ticarət Komissarı Sesilia Malstrom öz nitqində Aİ-nin məsələni yaxından izlədiyini və Azərbaycan hökumətinin bu məsələdə əməkdaşlıq etdiyini vurğulayıb və qeyd edib ki, Aİ diplomatik nümayəndələri M.Hüseynova baş çəkiblər, o aclıq aksiyasını dayandırıb və səhhətinə ciddi təhlükə yaradan vəziyyət yoxdur.

### AP-ni 1 milyon qaçqınımız deyil, Mehman Hüseynov üzərində qurulmuş şou və LGBT maraqlandırır...

Həmçinin, qətnamədə xüsusi ağırlıq verilən məqamlardan biri də, Azərbaycan gey, lesbiyan və digər seksual azlıqların və ya LGBT icması adlanan şəxslərin hüquqlarının müdafiəsidir. Ümumiyyətlə, 1 milyon insanımızın hüquq pozuntuları, zorla yurd-yuvalarından qovulmaları və bütün bunların təcavüz, işğal nəticəsində baş verdiyi halda, digər lüzumsuz məsələlərin qabardılması AP-nin Azərbaycan dövləti ilə təzyiq, qərəz dilində danışmaq cəhdlərinin göstəricisidir. Lakin bəri başdan onu da qeyd edə bilərik ki, müstəqil siyasət yürüdən Azərbaycan dövləti heç bir halda, bu cür siyasi-teatral tamaşa-şouların ciddi olaraq qəbul etmir. Çünki bütün bunlar həm də Azərbaycan xalqının iradəsinə qarşı hesablanmış mənfur addımdır.

### Emin Hüseynov niyə əl-ayağa düşüb və məyus olub?

Diqqət çəkici və önəmli bir məqam isə M.Hüseynovun qardaşı Emin Hüseynovun qətnamə üzrə səsvermədən az öncə AP üzvlərinə təlaş içində elektron məktub ünvanlamasıdır. Bu məktubunda Komissar Malstromun çıxışında M.Hüseynovun aclıq aksiyası keçirmədiyi sözlərindən böyük peşmançılıq hissi yaşadığı hiss edilən qardaş Hüseynov özü, bunu “şok oldum” kimi yazır. Çox maraqlıdır ki, görəsən o, yüksək səviyyəli Aİ rəsmisinin həqiqəti dilə gətirəcəyini gözləmədiyi üçün şok keçirdib, yoxsa M.Hüseynovun əldə olunmuş razılığa əməl etmədiyindən dərin məyusluq keçirib?! Strasburqa AP üzvləri ilə görüşlər keçirərək hər kəsi sifariş əsasında qurduqları şouya inandırmağa çalışan E.Hüseynovun səsvermə öncəsi deputatlara isterik şəkildə yazdığı müraciəti bir daha isbat edir ki, bu insanı qardaşı M.Hüseynovun taleyi maraqlandırmır, o, bu oyundan əldə edəcəyi şəxsi maraqlarını güdür və onun havadarlarının sifariş verdiyi musiqini ifa edərək, onların xoşhal olmalarına çalışır.

### Qərəzli qətnamə üzə çıxan kimi, onu ilk ictimailəşdirən məhz erməni KİV-ləri olub!

Diqqətlərdən yayınmayan bir məqam da AP-nin qəbul etdiyi qətnamə barədə ilk məlumatın məhz erməni mətbuatında işıqlandırılmasıdır. Bu isə belə nəticəyə gəlməyə əsas yaradır ki, ermənilər Azərbaycan əleyhinə yönəlmiş həmin qətnamənin qəbulunu gözləyirdilər. Şübhəsiz ki, bu kimi məsələlərdə AP-nin dəyirmanına su tökənlərin kim olduğu kimsəyə sirr deyil. Çünki daha öncələr də anti-Azərbaycan xarakterli qətnamələr, hesabatlar, bəyanatlar səslənərkən, onların hər biri dərhal Ermənistan mediasında işıqlandırılır, bunun ardınca isə, özlərini “Azərbaycan müxalifətinin liderləri” kimi zorən xalqa sırımağa cəhd edən xəyanətkar ünsürlərin sosial şəbəkələrindəki səhifələrini “bəzəyir”...

### Bu əsassız qətnamə də əlbəttə ki, rədd edilənlər siyahısına əlavə edilərək, tarixin zibil urnasına atılacaq!

Beləliklə, bütün bunlardan məntiqi nəticə hasil edərək bu cür qənaətə gəlmək olar ki, AP-nin böhtan və qərəz xarakterli qətnaməsinin heç bir qüvvəsi, təsiri yoxdur. Çünki bizlər zaman-zaman bəzi məlum qüvvələrin Azərbaycan əleyhinə bu kimi alətlərdən istifadə etdiklərinin şahidi olmuşuq. Bu da bir həqiqətdir ki, belə alətlərdən istifadə edən şəxslər elə M.Hüseynovun kimilərinin taleyi üzərində öz məkrli planlarını reallaşdırmağa çalışırlar. Lakin belə cəhdlərin uğursuzluqla nəticələnəcəyini də bəri başdan vurğulamaq mümkündür. Nə Azərbaycan xalqı, nə də heç bir vətənsevər şəxs, kimlərinsə çirkin maraqlarına görə öz dövlətinin maraqlarına, xalqın iradəsinə qarşı çıxış edən mənfur addımları dəstəkləmir, əksinə rədd edir. Bu əsassız qətnamə də əlbəttə ki, rədd edilənlər siyahısına əlavə edilərək, tarixin zibil urnasına atılacaq!

*Rövşən RƏSULOV*

## “Azərbaycan yeni diplomatik formatlar müəyyən edib”

***“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli Azərbaycan xarici siyasətinin əsas prioriteti olmaqla bərabər ölkəmizin ərazi bütövlüyünün bərpa və sərhəd toxunulmazlığının təmin olunmasını milli diplomatiyamız qarşısında məqsəd kimi müəyyənləşdirir. Bunun üçün Azərbaycan ötən illər ərzində mühüm, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə ilk növbədə problemin həlli ilə bağlı yeni şərtlər formalaşdırmağa nail olub”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı, politoloq Hikmət Babaoğlu deyib.***



Millət vəkilinin sözlərinə görə, bu şərtlərin formalaşdırılması mühüm strateji istiqamətlər üzrə müəyyən edilmiş ardıcıl və məqsədyönlü siyasət sayəsində mümkün olub: “İlk növbədə beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılması, regional və beynəlxalq təşkilatlarla ölkəmizin bərabərhüquqlu tərəfdaşlığa nail olması, ikinci isə regionda ermənilərlə ənənəvi əlaqələri olan və daha çox Ermənistanın tərəfdaşı kimi tanınan ölkələri öz tərəfdaşına çevirməsi siyasəti həyata keçirilib. Əgər diqqət yetirsək görəcəyik ki, bunlar bir neçə istiqamətdə müəyyənləşib. Bunlar şimal, cənub və qərb istiqamətləridir. Bilirik ki, Dağlıq Qarabağ probleminin həllində Rusiya Federasiyası özünəməxsus və xüsusi çəkisi olan ölkədir. Amma biz onu da bilirik ki, bu ölkə ilə ayrı-ayrı mərhələlərdə münasibətlər sabit, ancaq enişli-yoxuşlu olub. 2007-ci ildən sonrakı mərhələdə Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası sayəsində Rusiya ilə münasibətlər strateji müttəfiqlik səviyyəsinə qalxıb. Eyni zamanda İranla münasibətlər yüksək səviyyəyə çatıb. Bu münasibətlərin yaxşı olması üçün Azərbaycan yeni diplomatik formatlar müəyyən edib və bu formatlar çərçivəsində öz milli maraqlarını müdafiə edən strategiya irəli sürüb. Nəticədə nə baş verib? Təkcə 2018-ci ildə Azərbaycan və Rusiya prezidentləri 6 dəfə görüşüblər. Bunun özü münasibətlərin yeni mərhələsindən xəbər verir”.

H.Babaoğlu qeyd edib ki, eyni zamanda Azərbaycan regional əməkdaşlığı prinsipial mövqe olaraq müəyyənləşdirməklə tərəfdaş ölkələrin milli maraqlarını da öz milli maraqları ilə uzlaşdırmağı bacarıb: “Tutaq ki, şimal qonşumuza bəzi Avropa ölkələri tərəfindən tətbiq olunan sanksiyalar zamanı Azərbaycan yaxın qonşuluq prinsipindən çıxış etmiş, eyni zamanda cənub qonşumuz İrana müxtəlif vaxtlarda, müxtəlif sanksiyalar tətbiq edilsə də, Azərbaycan qonşuluq siyasətini dəyişmədən cənub qonşumuzla münasibətləri yüksək səviyyədə saxlamağı bacarıb. Eyni vəziyyəti biz Gürcüstan və Türkiyəyə münasibətdə də müşahidə edə bilərik. Çünki Azərbaycanın həyata keçirdiyi bütün qlobal iqtisadi layihələrdə Gürcüstanı tranzit ölkə kimi müəyyənləşdirməklə və onun iqtisadiyyatına sərmayə qoymaqla, əlaqələri gücləndirməklə bu ölkə ilə münasibətləri yüksək səviyyədə saxlamağı bacarıb. Türkiyəyə gəldikdə isə bu münasibətlər hazırda sözün həqiqi mənasında “bir millət, iki dövlət” münasibətləri səviyyəsində xarakterizə olunur. Göründüyü kimi, bunlar uzunmüddətli düşünülmüş strategiya nəticəsində mümkün olan reallıqlardır”.

Müsahibimiz əlavə edib ki, beləliklə, hazırda - 2019-cu ildə Ermənistan həm regionda, həm də beynəlxalq aləmdə Azərbaycanın nüfuzu qarşısında küncə sıxışdırılmış vəziyyətə düşüb: “Eyni zamanda ənənəvi müttəfiqlərini də itirib. Azərbaycan Prezidentinin də dediyi kimi Azərbaycan işğalçı Ermənistana qarşı təcrid siyasətini uğurla davam etdirib və işğal faktı davam etdikcə həmin siyasəti davam etdirəcəyik. Yeni reallıq və Ermənistanın bu cür küncə sıxışdırılması onun öz ənənəvi müttəfiqləri ilə münasibətlərinin korlanmasına gətirib çıxarıb ki, ötən ilin aprelində başlayıb dekabr ayında sona çatan hadisələrdə biz bir daha bunun şahidi olduq. Ona görə də Azərbaycan 2019-cu ilə yeni yaratdığı geosiyasi reallıqlarla qədəm qoyub. Bu reallıqlar ölkəmizin lehinədir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində yeni perspektivlər yaradır. Düşünürük ki, 2019-cu il bu sahədə mühüm impulslar və irəliləyişlər kimi tarixə düşəcək”.

# 1990-cı il 20 Yanvar -insanlıq tarixinə və milli yaddaşa yeni yanaşmanı zəruri edir

***Müasir dünyada bəşəri dəyərlərin əxz edilməsi, bilavasitə milli yaddaşların və millətlərin tarixindən çıxarılan nəticələrin öyrənilməsini gündəmə gətirir. Əslində, insanlıq tarixi bəşər tarixinin elə özəyidir. Ona görə də, millətlərin, xalqların həyatında baş vermiş hadisələrə ayrı-seçkilik qoymadan ədalətli qiymətin verilməsi dünyanın gələcək taleyinə çox ciddi təsir edən amildir. Əlbəttə, fərqli yanaşmalar tarixən olub, indi də var, yenə də olacaq. Problem ondadır ki, bu gün dünyada baş verən elə hadisələrə birtərəfli yanaşmalar var ki, bu hadisələr bütün insanlıq tarixi üçün cinayətdir və onun dünyanı qlobal təhlükələrlə üz-üzə qoyduğu çox açıq-aydın görünür. Özü də qabaqcıl dünya ölkələrinin qismində belə laqeydlik, hansısa yanlış siyasətin qurbanına çevrilmiş yanaşmalar və s. bizi narahat edib düşündürməkdədir.***




Şübhə yox ki, hər bir xalqın özünəməxsus milli keyfiyyətləri onların özləri üçün bir örnək ola bilər. Bəs bu keyfiyyətlərdən bəşəriyyət nə əxz edir? Onların tərəqqiyə, yoxsa tənəzzülə daha çox təsiri vardır? Bu suallara cavabı, hesab edirəm ki, hər bir xalq öz tarixi yaddaşından qaynaqlanan düşüncələrində axtarmalıdır. Tarixə nəzər salarkən, görünür ki, bəzi xalqlar öz dövləti və dövlətçiliyi çərçivəsində bu axtarışı hansısa səviyyədə edib. Lakin bəşəriyyətdə sabitlik və inkişaf naminə tarixi yaddaşlara obyektiv yanaşmanın ifadəsi, təəssüf ki, çox azdır. Əgər hansısa bir dövlət hegemonluq edərək, öz siyasi məqsədlərini həyata keçirmək üçün bütün bəşəri dəyərləri tapdalayıb, milyonların qanına əlini batırırsa, daha sonra isə ona müxtəlif çalarlar verərək, özünə haqq qazandırmağa çalışırsa, onda dünyada mütərəqqi ideyalar ətrafında insanları birləşdirən dəyərlərin və hüquq mexanizmlərinin fəaliyyəti, təbii ki, şübhə altına düşür. Bu səpkili sualları və mühakimələri çox etmək mümkündür. Lakin deməliyəm ki, humanizmdən, haqq-ədalətdən danışarkən, azərbaycanlı milli yaddaşından və onun komponentlərindən sivil dünya qurulması yolunda çox şey əxz edilə bilər. Bunu açıq deməyə haqqımız var. Çünki tarixən siyasi maraqların kəsişdiyi və həmişə düşmənlərin açıq və gizli hərbi-siyasi planlarında ağır və məşəqqətli mübarizə meydanına çevrilmiş Azərbaycan heç vaxt sınmamış, mənəvi-humanist dəyərlərini itirməmiş, bəşəriyyətin taleyinə xələl gətirən, insanlığa zərbə vuran əməllərin qarşısına müdrik fikirləri və ədalətli addımları ilə çıxmışdır. Tarixin belə mürəkkəb prosesləri bizim xalqımıza cox faciələr yaşatmış, milyonlarla günahsız soydaşımız zaman-zaman haqsızlığın qurbanına çevrilmişdir. Ən yeni tariximizin daha bir qanlı səhifəsi 1990-cı ilin 20 yanvar tarixində Sovet imperiyasının günahsız insanlarımızı görünməmiş təcavüzə məruz qoyması, insanlığa, bəşəriyyətə qarşı qanlı cinayət törətməsi ilə yazılmışdır. Bu insanların meydana necə, kimin təhriki ilə gəlməsi ayrı məsələdir. Buna görə də imperiya, əgər günahı vardısa, 3-5 təşkilatçını cəzalandıra bilərdi. Lakin əsas tələb bu idi ki, əsrlərlə haqqı tapdanan, təcavüzə, torpaq itkisinə məruz qalan Azərbaycan xalqı öz tarixi ərazləri hüdudlarında müstəqilliyini bərpa etmək istəyirdi. Bu, həmin vaxt idi ki, digər xalqlar da imperiyanın əsarətindən azad olmaq üçün mübarizəyə qalxmışdılar. XX əsrin 90-cı illərində Dağlıq Qarabağda milli zəmində ziddiyyətlərin dərinləşməsi və onun ağır nəticələri, tarixi torpaqlarımızdan növbəti dəfə yüz minlərlə soydaşımızın köçürülməsi imperiyanın apardığı şovinizm siyasətini pik həddə çatdırmışdı. Belə bir zamanda xalqın haqlı tələbi, heç kimin haqqına girmədən öz müqəddəratını özünün təyinetmə istəyi ortaya qoyulmuşdu. Bunu istəməyən imperiya günahsız insanlarımızı səhv siyasi ideologiyanın qurbanı edərək, genosid siyasətini həyata kecirməkdən çəkinməmişdir. Halbuki Sovet imperiyası öz səhvləri üzündən daxili və xarici amillərin təsirindən çökmüşdür. Bu süqutun labüdlüyü və qarşısıalınmazlığı mərkəzi hakimiyyətə də çox yaxşı məlum idi. Bəs onda çürümüş Sovet rejimi nədən narahat idi və bu qırğınları törətməkdə məqsəd nə idi? Yaxud ona ehtiyac var idimi? Bu qanlı cinayətləri törətməkdə məqsəd, şübhəsiz ki, imperiyanı qoruyub-saxlamaq cəhdi deyildi. Çürümüş və çirkabla pərdələnmiş imperiyanın xalqlara olan münasibətinin iç üzü idi ki, bu obrazı göstərməklə özünü sübut etdi. Lakin bu qırğının imperiya tərəfindən törədilməsi, bütün dünyaya göstərdi ki, Azərbaycan xalqının müstəqillik əzmini qırmaq mümkün deyil. Bu tarixi cinayətə genosid deməyə əsaslarımız çoxdur. Onların ən dəhşətlisindən biri budur ki, azğınlaşmış silahlı imperiya qüvvələrinə rəhbərlik edənlər insanlarımızı vəhşicəsinə öldürdükləri bir tərəfə, onların cəsədlərinin kütləvi şəkildə dənizə tökülməsi haqqında əmr vermişlər. Bu da həmin hadisənin izinin itirilməsini qarşıya qoymuş əsas məqsəd idi. Bu zaman xalqımızın möhkəm iradəsini sındıra bilməyən imperiya qüvvələri insanlarımız tərəfindən dəniz kənarında çəkilmiş siperlə qarşılaşmışdılar. Bu siperi yara bilmədilər. Bura da əliyalın xalqın iradəsi öz sözünü dedi və silahlı imperiyaya qalib gəldi. Məkrli qüvvələr bu hadisələrin tərkib hissəsi olaraq Dağlıq Qarabağ münaqişəsinin qızışdırılmasını, ölkəni daxildən parcalamaq üçün tarixi planın həyata kecirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur. Bunun üçün milli zəmində qırğınlar törətmək, dünyada məzlum erməni obrazı yaratmaqla Sumqayıt, Bakı, Əsgəran və s. yerlərdə erməni və Azərbaycan xalqını bir-birinə qarşı qoymaqla bərabər, daxili sabitliyin pozulması dövlət çevrilişlərinə edilən cəhdlər ön plana cıxmışdır. Tarix sübut etdi ki, bu işə maraqlı qüvvələr yenə də zəif erməniçilik sindromundan məharətlə istifadə etdilər. Çünki Qafqazda bu sindrom tarixən Azərbaycan xalqına qarşı əldə vasitə kimi istifadə olunmuşdur. Çox təəssüf ki, hakimiyyətdə olan o zamankı rəhbərlər, belə siyasi gedişləri düzgün dərk etmədilər ki, düşmən qüvvələr Azərbaycanı parçalayaraq, bir dövlət kimi məhv etməyi qarşısına məqsəd olaraq qoyub. Az bir vaxtda həmin plan açıqca özünü göstərməyə başladı. İmperiyanın və bir sıra xarici kəşfiyyatın təsiri ilə ölkəmiz addım-addım tarix səhnəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Deyərdim ki, bu, yaxın tariximizin acı və bizə açıqca göstərdiyi həqiqətlərdir. Bu zaman Ulu Tanrı Dahi Öndər Heydər Əliyev dühasını xalqımızın köməyinə gətirdi. Tamamilə öz məcrasından çıxmış, humanizmi tapdamış, insani və bəşəri dəyərləri məhv etmiş avantürist bir siyasətin caynağından Azərbaycanın qurtulmasının ağır yükü, məhz bu dahi şəxsiyyətin üzərinə düşdü. Bu gün, bir çox region dövlətləri bilməlidirlər ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanla yanaşı, bu çirkin siyasətin girdabında boğularaq, onun təsiri altına düşmüş böyük bir regionun taleyinin xilaskarlıq missiyasını həyata keçirdi. Öz siyasi iradəsi ilə dünyaya bir həmrəylik, regiona sabitlik, inkişaf və tərəqqi çağırışları etməklə bunu yenilməz siyasi iradəsi, özünün dünyadakı şəxsi nüfuzu sayəsində praktiki baxımdan tətbiq etdi. Bəşəriyyətin və insanlığın tarixində xüsusi bir mərhələyə yol açdı. Əslində, biz obyektiv tarixi yaddaşı belə hadisələrə məntiqi düşüncələrlə, obyektiv müqayisəli təhlillərlə yaratmalıyıq.

Dünya tarixindəki belə hadisələrə əsaslanaraq, deməliyik ki, indi tarixi yaddaşlara qayıdış və ondan nəticələrin cıxarılmasına çox böyük zərurət vardır. Fransız tarixçisi Pier Nora yazır ki, "tarix yaddaşlarda transformasiyaya uğrayır. Eynu zamanda, insanlar indi tarixi yaddaşdan, ona görə danışmalıdırlar ki, o, getdikcə azalıb". Deməli, millətin öz yaddaşını necə dəyərləndirməsindən, baş verənləri öz yaddaşında necə yerləşdirə bilməsindən, habelə, onun müsbət tərəflərini necə təqdim edə bilməsindən, hətta dünyanın gələcəyi çox asılıdır. Əslində, belə münasibət, deyərdim ki, xalqların bəşəriyyət qarşısında hesabatı, insanlığa olan obyektiv münasibətidir. 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Ulu Öndər Heydər Əliyev hələ Moskvada olarkən, imperiyanın mərkəzində verdiyi bəyanatla bəşəriyyətə və insanlığa qarşı yönəlmiş bu cinayətin əsl mahiyyətini çox böyük cəsarətlə onların öz gözlərinin içərisinə deməklə, bu əsasda bir tarixi yaddaş yaratmış oldu. Həmin bəyanat imperiyaya sübut etdi ki, Azərbaycan xalqı kimsəsiz və müti xalq deyil və dünya tarixinə, eləcə də, Sovet imperiyasının hökm sürdüyü vaxtda bütün sahələrə əvəzsiz töhfələr vermiş böyük bir xalqa qarşı edilən genosid siyasətinin səbəbləri bir zaman soruşulacaqdır. Odur ki, bizim üçün 20 Yanvar faciəsinin əsl mahiyyətini dərk etmək, yaddaşlarımızda onun yerini düzgün müəyyənləşdirmək, hər zaman xüsusi əhəmiyyətə malik bir məsələdir. Ona görə də, millətin tarixi yaddaşında belə hadisələrin düzgün yerləşdirilməsi üçün, müntəzəm olaraq, alimlərin əməyinə və rəsmi qərarların verilməsinə böyük ehtiyac vardır. Əgər haqsızlığa qarşı millətimiz silahlı qüvvələrlə əliyalın mübarizə aparmış, ölüm-dirim mübarizəsinə girmişlərsə, bu, tarixi yaddaşımızın yeni qəhrəmanlıq səhifəsi deyilmi?! Bəli, bu mübarizə insanlığa edilən cinayətə qarşı çıxmaq və özözlüyündə dünyanı haqqa-ədalətə iti gözlə baxmağa bir cağırış idi. Təkcə öz azadlığı uğrunda mübarizə deyil, bütövlükdə, insanlığın azadlığı naminə edilən ideoloji mübarizə idi.

Həmin tarixi şəraitdə Qafqazdakı siyasi proseslərin Ulu Öndər Heydər Əliyev kimi müdrik siyasi xadimin nəzarəti altında keçməsi regionda öz siyasi məqsədlərini həyata keçirməkdə maraqlı olan bir sıra ölkələri narahat etməyə başladı. Onun, qısa zamanda, həyata keçirdiyi sülh siyasəti, humanizm, ədalətlilik prinsipinə əsaslanan dövlətçilik konsepsiyası həmin dövlətlərin məkrli planlarının qarşısına sədd çəkdi. Əks-tərəflər isə Qafqazda yaradılacaq sülhə və sabitliyə maneə olmaq üçün yeni siyasi gedişlər etməyə başladılar.

Bu gedişlərdən biri də bir sıra dövlətlərin Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olmadığını qabartmağa calışması idi. Daha sonra mübahisəli ərazi tendensiyası hökm sürməyə başladı, bir qədər sonra ümumdövlət prinsiplərinin olması zərurətini ortaya qoymaq cəhdləri edildi. Belə cətin tarixi şəraitdə dünyadakı erməni lobbisinin və onların himayədarlarının Azərbaycana qarşı siyasi -ideoloji hücumlarına Ulu Öndər Heydər Əliyev böyük zəkası ilə cavab verdi. Dahi siyasi xadim, ilk olaraq, bir tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti və tarixi kökləri ilə dünyanı yaxından tanış etdi. Həmin vaxta qədər Azərbaycan

# 1990-cı il 20 Yanvar -insanlıq tarixinə və milli yaddaşa yeni yanaşmanı zəruri edir




haqqında formalaşmış bütün neqativ fikirləri puça çıxardı. Digər tərəfdən isə, xalqın mütəşəkkiliyini təmin edən vahid həmrəylik və güclü dövlətin qurulması yolunda xalq-lider bağlılığını formalaşdırdı. Bu atılan ilk addımlar Azərbaycanın dövlətçilik tarixində zəngin tarixi yaddaşının özünə qaytarması və onun əsasında yenidən bəşəriyyətdə humanist, demokratik dövlətin qurulmasının möhkəm bünövrəsini qoymuş oldu. Dövlətçilikdə tarixi yaddaşın kök salması üçün keçmişimizi, ənənələrimizi və milli dəyərlərimizi özündə əks etdirən azərbaycançılıq ideologiyasının zamanında dərk olunmasını ölkəyə rəhbərliyinin ilk vaxtlarında mühüm ideoloji vəzifə kimi qarşıya qoydu. Hələ 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etmişdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət edərək, tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar ümumxalq hüzn günü elan olundu... Az sonra 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu..."20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı hadisəsi-20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi.

Bundan sonra Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək, həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" Fəxri adı verildi, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncamla əlil olmuş şəxslərə imtiyazlar müəyyənləşmiş, bu istiqamətdə davamlı olaraq qərarlar qəbul edilmişdir. 2006-cı il yanvarın 19-da ölkə başçısının Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi, həmin ailələrin maddi təminatının yaxşılaşdırılması üçün ardıcıl islahatlar həyata kecirilmiş və keçirilməkdədir. Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Memorial Abidə Kompleksinin inşasına başlanıldı. 2010-cu il yanvarın 20-də isə kompleksin açılışı oldu. Bununla yanaşı, Azərbaycanın I Vitse-Prezidenti Mehriban xanım Əliyeva tərəfindən müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə də böyük qayğı ilə yanaşılaraq, 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində, müntəzəm olaraq, mühüm işlər görülməkdədir. Bütün bu işlərin görülməsi, deməyə əsas verir ki, tarixi yaddaşımızın düzgün dərk edilməsi və ondan doğru nəticənin cıxarılması vətəndaş olaraq bizim hər birimizi daim düşündürməlidir.

Burada təəssüflə onu qeyd etməliyik ki, obyektiv həqiqətlərin dünyaya catdırılmasına baxmayaraq, işğaldan əziyyət cəkən Azərbaycan Respublikası 30 ilə yaxındır ki, beynəlxalq normaların və prinsiplərin fəaliyyətsizliyi ucbatından, hələ də dünyada haqq-ədalət uğrunda mübarizədə böyük maneələrlə qarşılaşmaqdadır. Bu gün dünyadakı özbaşnalıqların əsas səbəbi də, məhz bu prinsiplərin işləməməsidir. Ulu Öndər Heydər Əliyev və Onun siyasi varisi Prezident İlham Əliyev haqlı olaraq dünyanın mötəbər tribunalarından bu fəaliyyətsizliyin bəşəriyyət üçün acı nəticələrini dəfələrlə bəyan etmişlər. Beynəlxalq hüquq normalarının işləməməsi analoji olaraq, yüksək insani keyfiyyətləri özündə birləşdirən mənəvi-humanist ideyalara müraciətin olmasını zəruri etmişdir. Prezident İlham Əliyev dünyada bu sahədə prinsipial mövqeyə malik bir siyasi lider kimi sülhə və sabitliyə dair irəli sürülmüş Azərbaycan modelinin örnək olmasını göstərmişdir. Millətlərin hüquqlarına hörmət etmək kimi ideyada tolerantlığın və mültikultural dəyərlərin rolunu önə çəkmişdir. Lakin bu da faktdır ki, tolerantlıqdan danışarkən, bütün dünya bilməlidir ki, bu, məcburi dözümlülük deyil, buna mənəvi hazırlıq olmalıdır. Hesab edirəm ki, mənəvi cəhətdən sağlam, işğalçılıq niyyəti olmayan, hümanizmi dərindən dərk edən xalqlar bu prinsipə daha yaxındırlar. Bu, elə bir tarixi təkamül prosesidir ki, o, mənfi stereotiplərin düşüncələrdə və təfəkkürlərdə qarşısının alınması formalaşdırmalı, onun praktiki baxımdan tətbiq edilməsinə mənəvi dayanıqlıq yaratmalıdır. Çünki dünyadakı haqsızlığın və ədalətsizliyin zamanında qarşısının alınmaması, insanların taleyinə biganəlik, beynəlxalq hüquq mexanizmlərinin işləməməsi tolerantlığın və multikultural dəyərlərin düzgün dərk edilməsini zəruri etmişdir. Tarixi təcrübə göstərir ki, indiyədək silah və hərb gücünə baş qaldırmış münaqişələrin acı nəticələrinin hələ də yaşanılması növbəti qarşısıalınmaz faciələrə yol acmaqdadır. Buna görə də, beynəlxalq qanunların və hüquq mexanizmlərinin işləmədiyi məqamda mənəvi dəyərlər öz sözünü deməlidir ki, dünya insan taleyinə biganə qalmasın, bəşəriyyət uçuruma getməsin. Beləliklə də, Prezident İlham Əliyevin müasir dünyaya etdiyi çağırışlar xalqımızın milli iradəsinin ifadəsi olaraq həm bu amillərin düzgün dərk edilməsini, həm də bəşəriyyətdə sağlam, sabit gələcəyin bərqərar olması üçün tarixi yaddaşlarda işğalçılığa və ədalətsizliyə son qoyulmasını tələb edən yanaşmanı zəruri edir.

Sənan Həsənov,
***AMEA Fəlsəfə İnstitutunun "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsinin aparıcı elmi işçisi siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İSESKO-nun 2019-cu ili "İslam Mədəni İrsi İli" elan etməsi islam həmrəyliyinin daha da gücləndirilməsinə töhfələr verəcək

***Dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan İSESKO ilə münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş İSESKO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir.***

Bakı şəhərinin 2009-cu il üçün İslamın Paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması İSESKO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. Hər hansı şəhərin islam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, islam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə malik olmalıdır. Naxçıvan şəhəri öz qədimliyi və müasirliyi ilə bütün bu qayda və prinsiplərə cavab verir. Naxçıvanda 210 məscid və 26 dini ziyarətgah var. Müstəqillik illərində yeni məscidlər tikilib. Reallaşdırılan yeni layihələr nəticəsində, Naxçıvanın müasir siması yaradılıb. Bu layihələr 2018-ci ildə islam aləminə təqdim olundu.

Əlbəttə ki, bu, Azərbaycanın dinamik inkişafının təzahürüdür. İSESCO-nun baş direktoru Əbdüləziz əl-Tüveycrinin vurğuladığı kimi, "Azərbaycan İSESCO-ya daxil olduğu vaxtdan bu yana böyük inkişaf yolu keçib. Biz əlaqələrimizin hazırkı səviyyəsindən məmnunuq. Azərbaycan müasir müsəlman aləminin mirvarisidir. Bu ölkənin getdiyi yol sabitlik və inkişaf yoludur. Biz Azərbaycandan çox şeylər götürə bilərik".

### AZƏRBAYCAN MÜSƏLMAN DÜNYASININ ÜZLƏŞDİYİ CARİ PROBLEMLƏRİN HƏLLİNDƏ FƏAL İŞTİRAKÇIDIR

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu əlaqələrin inkişafında müstəsna rolu və dəstəyini, xüsusilə, qeyd etməliyik. Təşkilatla əlaqələr respublikamızın Birinci xanımı Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində İSESKO-nun Xoşməramlı Səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur. 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlər qeyd olunmalıdır. Bu sırada Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, "Dünya dini liderlərinin Bakı sammiti", Ümumdünya mədəniyyətlərarası dialoq forumu" və s. tədbirləri qeyd edə bilərik. İSESKO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabının ərəb dilində çap edilməsi bu münasibətlərin daha bir göstəricisidir.

Hələ müstəqilliymizin ilk illərində erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin islam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu qeyd edilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində İslam Əməkdaşlıq Təşkilatının Ermənistanla Azərbaycan arasında torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul etdiyini bildirib. Belə ki, rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqeyini diqqətdə saxlayaraq, İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" adlı qətnamələr qəbul edilib. İƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini hər zaman dəstəkləyib və bu, təşkilat üçün prioritet olaraq qalır. Belə ki, bu məsələ hər zaman təşkilat tərəfindən istər qətnamələrdə, istər sammit çərçivəsində, istərsə də xarici işlər nazirlərinin qətnamələrində yer alır.

### "DƏYƏRLƏRİMİZİ TƏŞVİQ ETMƏK VƏ KEÇMİŞİMİZİ, BU GÜNÜMÜZÜ VƏ GƏLƏCƏKLƏ BAĞLI PLANLARIMIZI DÜZGÜN ŞƏKİLDƏ ÇATDIRMAQ ÜÇÜN DAHA FƏAL OLMALIYIQ"

Bu gün islam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, ölkəmizdə Prezident İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. "Biz dinimizin əsl simasını, mədəniyyətimizi, tarixi irsimizi, potensialımızı və bəşəriyyətin inkişafına verdiyimiz töhfəni nümayiş etdiririk" - deyən Cənab Prezident IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycanın ev sahibliyi etməsini birliyin nümayiş olduğunu vurğulayıb.

Müsəlman aləminin gənc nəsilləri milli, ənənəvi dəyərlərimizə əsaslanaraq, formalaşması əsas məsələlərdən bir olaraq qarşıda durur. Azərbaycan da, öz növbəsində, dəyərlərimizi təşviq etmək üçün əlindən gələni edir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Biz müsəlman aləminin mədəniyyətini nümayiş etdirmək, islamı sülh, qardaşlıq və tolerantlıq dini kimi təqdim etmək məqsədilə dünyanın müxtəlif yerlərində bir çox konfranslar, sərgilər və digər mədəni tədbirlər təşkil etmişik. İslamı dünyaya təhlükə kimi təqdim etmək istəyənlərə imkan verməmək üçün biz daha çox çalışmalıyıq, səylərimizi birləşdirməliyik. İslam sülh və qardaşlıq dinidir. Biz bunu bilirik. Hər kəs bunu bilməlidir. Dəyərlərimizi təşviq etmək və keçmişimizi, bu günümüzü və gələcəklə bağlı planlarımızı düzgün şəkildə çatdırmaq üçün daha fəal olmalıyıq".

Bu gün İSESKO 2019-cu ili "İslam Mədəni İrsi İli" elan edib. İSESKO öz bəyanatında üzv dövlətləri bu əlamətdar hadisənin bayram edilməsi üçün bütün zəruri tədbirləri görməyə çağırıb. "İslam Mədəni İrsi İli" çərçivəsində müsəlman ölkələrində mədəniyyətin inkişafında töhfə olan tarixi-memarlıq abidələrinin, rəssamlıq şedevrlərinin, əlyazmalarının, sikkələrin, islam rəmzləri və müasir detalların təbliğinə xüsusi diqqət yetiriləcək. İSESKO, həmçinin, bir çox maddi və qeyri-maddi irs nümunələrinin İslam Dünyası Mədəni İrsi Siyahısına daxil edilməsi təklifini irəli sürüb. İl ərzində sözügedən mövzuya həsr olunan "Açıq qapı" günləri keçiriləcək. İSESKO ekstremistlərin, sektant və terrorçuların fəaliyyəti nəticəsində münaqişə zonalarında təhlükə altında qalan zəruri sənədlərin qorunması ilə də məşğul olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Nəsimi ili" Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunmasına və təbliğinə böyük töhfədir

***Prezident İlham Əliyevin bu ili "Nəsimi ili" elan etməsi haqqında tarixi qərarı ulu öndər Heydər Əliyevin xalqımız üçün gördüyü işlərin uğurlu davamı, milli-mənəvi sərvətimizə verilən dəyərin, hörmət və ehtiramın yüksək göstəricisidir. Bu addım Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunmasına və təbliğinə çox böyük töhfədir. Bu sözləri AZƏRTAC-a Azərbaycan Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev deyib.***



Qeyd edib ki, uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzində olan, milli-mədəni sərvətlər xəzinəsində özünəməxsus yer tutan Nəsimi irsi bundan sonra daha geniş şəkildə araşdırılacaq, xüsusilə, incəsənətin bir çox janrlarında Nəsimi mövzusunda yeni-yeni əsərlərin meydana gəlməsinə təkan verəcək. "Düşünürəm ki, dövlət başçısının Sərəncamı bütün yaradıcı kollektivlərin çiyinlərinə düşən məsuliyyəti daha da artıracaq - mədəniyyətimiz üçün əhəmiyyətli şəxsiyyət, qüdrətli söz ustası Nəsimi haqqında ilboyu keçiriləcək tədbirlərin gedişatında fəal iştirak etmək, yeni səhnə əsərləri hazırlamaq, yeni layihələri reallaşdırmaq və geniş auditoriyaya təqdim etmək ümdə vəzifəmiz olmalıdır", - deyə Ə.Lalayev bildirib.

# "Azərbaycan bütün ölkələrlə öz münasibətlərini, əməkdaşlığını qurur"



"Azərbaycanın beynəlxalq siyasəti cənab Prezidentin rəhbərliyi altında tarazlı şəkildə həyata keçirilir. Heç bir qlobal güclərə qoşulmadan müstəqil şəkildə öz xarici siyasətini yürüdür. Bu gün dünya tərəfindən də bizim ölkəmizin apardığı xarici siyasət yüksək səviyyədə dəyərləndirilir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Deputatın sözlərinə görə, Azərbaycan öz qonşuları ilə çox gözəl qonşuluq siyasətindədir: "Bu siyasət qonşularla bir yerdə regionun iqtisadi inkişafına, təhlükəsizliyin təminatına xidmət edir. Qonşular dedikdə torpaqlarımızı işğal edən, bizimlə düşmənçilik münasibətində olan Ermənistandan başqa bütün qonşularla Azərbaycanın münasibətləri çoxyüksək səviyyədədir. Təbii ki, bu da qonşu ölkələrin inkişafı ilə Azərbaycanın regional layihələrinin həyata keçirilməsində özünü göstərir. Bu layihələrə Bakı-Tbilisi-Qars dəmir yolunu, Cənub Qaz Dəhlizini və s. göstərə bilərik. Eləcə də Azərbaycanın yerləşdiyi coğrafiyaya görə, tranzit layihələrin ölkəmizdən keçən inkişafı istiqamətində məsələn, İran-Rusiya-Azərbaycan üçtərəfli əməkdaşlığı buna misal göstərmək olar. Bu çox böyük dəyərli münasibətlərdir. Bu münasibətlərin inkişafı bir bölgədə yaşayan qonşular arasında münasibətlərin möhkəmlənməsinə və onların iqtisadiyyatlarının inkişafına öz töhfəsini verir. Xəzərin hüquqi statusu ilə bağlı imzalanan konvensiya isə münasibətlərin daha da yeni mərhələdə səmərəli qurulmasına xidmət edir. Bu gün Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür. Ona görə də bu gün Azərbaycan hər bir ölkə ilə həm qonşu olan, həm də olmayan ölkələrlə sərbəst şəkildə öz münasibətlərini, əməkdaşlığını qurur. Bu bizim dövlət başçımızın yürütdüyü siyasətin təməlində dayanır".

***Ceyhun Rasimoğlu***

# “Cocuq Mərcanlı bütün Qafqaz regionunda xoş gələcəyin müjdəçisidir”



Opinion: From The Perspective of Azerbaijan, America Is Still a Beacon

POSTED BY EDITOR ON JANUARY 15, 2019 IN OPINION | 90 VIEWS | 0 COMMENTS | LEAVE A COMMENT

Share This Article:



Azerbaijan President Ilham Aliyev at the opening ceremony for the International Humanitarian Forum. Courtesy of the forum

By Raoul Lowery Contreras

I spent a week mingling with delegates from 90 nations at the 6th International Humanitarian Forum in Baku, Azerbaijan. Including me, three were from San Diego — a writer, lawyer and college professor. Being a student of cultural geography, I asked everyone I met where they were from.

Cruise Deals You Must See
These Cruise Deals Will Make You Want To Book Today. Learn More
Yahoo Search

GET TIMES OF SAN DIEGO BY EMAIL
Our free newsletter is delivered at a.m. daily.
Please enter email address:
SUBSCRIBE

1 Stock for

***Bu gün Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan beynəlxalq hüquq normalarını kobudcasına pozmaqda davam edir, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermir.***

Bildiyimiz kimi, BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirib. Bütün bunlara baxmayaraq, Ermənistan işğalçılıq və anti-Azərbaycan siyasətini davam etdirir.

Dünya ölkələrinin mətbuatı Ermənistanın bu mövqeyinə biganə qalmır. Bu günlərdə ABŞ-ın “Times of San Diego” qəzetində siyasi icmalçı və “Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi” kitabının müəllifi Raul Kontrerasın məqaləsində 1993-cü ildə baş vermiş faciələrdən bəhs edərək, müəllif yazır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistanın işğalçı qoşunlarının Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməyə baxmayaraq, vəziyyətini dəyişməyib və Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Lakin üç il əvvəl Azərbaycan Silahlı Qüvvələri uğurlu əməliyyat həyata keçirərək, Ermənistanın işğal etdiyi torpaqların kiçik bir hissəsini, o cümlədən, Cocuq Mərcanlı kəndini azad etdiyini diqqətə çatdırıb. Müəllifin yazdığına görə, Cocuq Mərcanlı bütün Qafqaz regionunda xoş gələcəyin müjdəçisidir. Azərbaycan hökuməti Cocuq Mərcanlıda yeni evlər tikib və dağıdılmış məscidi, mülki tikililəri, məktəb binasını bərpa edib. Müəllif yazır ki, Cocuq Mərcanlı adlanan bu kənd paytaxtdan 300 kilometrə yaxın məsafədə yerləşir və 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd üç il əvvəl işğaldan azad olunub. Burada yaşayan 450 azərbaycanlı ailəsi həyatlarına təhlükə yarandığından, öz evlərini tərk etməyə məcbur olub. Sağ qalanlar məcburi köçkünlərə çevrilib və Birləşmiş Millətlər Təşkilatının da qeydə aldığı bir milyon azərbaycanlı qaçqının siyahısına əlavə olunublar.

Həqiqətən də, bu gün işğaldan azad olmuş Cocuq Mərcanlı qəsəbəsi öz yeni dövrünü yaşayır. Orada hazırda 150 ev, məktəb, uşaq bağçası və məscid tikilib. “Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıda inşa etdik”, - deyən Azərbaycan Prezidenti Cocuq Mərcanlı kəndinin bərpasının Azərbaycan xalqının əyilməz ruhunun göstəricisi olduğunu bildirib: “Bu, bir daha göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Bu, bir daha onu göstərir ki, bütün məcburi köçkünlər bir arzu ilə - öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar. Əminəm ki, biz buna nail olacağıq. Cocuq Mərcanlı kəndinin yenidən qurulması aprel döyüşlərinin nəticəsindən, bizim parlaq qələbəmizdən sonra mümkün olmuşdur. Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının ərazilərinin bir hissəsi işğalçılardan təmizləncəndən sonra bu qəsəbənin bərpası mümkün olmuşdur. Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi”.

İndi Cocuq Mərcanlı yeni dövrünü yaşayır. Burada həm yaşamaq üçün, həm də işləmək üçün bütün infrastruktur yaradılıb. Məqalənin müəllifi yazır ki, 1993-cü ildə buradan didərgin düşən 150 kənd sakini artıq öz evlərinə qayıdıb. Daha 300 ailə onlar üçün tikiləcək yeni evlərə qayıdacaq. Nəticədə isə, gələcəyə ümidlə baxan müasir dövlət yaranıb. “Cocuq Mərcanlı ölkənin liderinin səylərini təcəssüm etdirir”, - yazan müəllif Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda Qərb standartları üzrə inkişaf davam edir, - deyə fikrini davam etdirib.

Müəllif məqalədə Bakıda keçirilmiş 6-cı Beynəlxalq Humanitar Forumla bağlı təəssüratlarını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və cəbhə bölgəsinə səfəri haqqında mülahizələrini də oxucularla bölüşüb. Müəllifin yazdığına görə, bütün irqlərə və dinlərə mənsub olan insanlarla birlikdə Bakı Beynəlxalq Humanitar Forumunda iştirakı onda antisemit və ümumiliklə, qeyri-tolerant şəxslərin fikirlərinin qəbuledilməz olduğuna dair qənaəti gücləndirib.

Məlum aprel döyüşlərində Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. Aprel ayının əvvəllərində “dörd günlük” müharibədə təcavüzkar erməni ordusunun təxribat xarakterli hücumlarına layiqli cavab verən Azərbaycan Ordusu yüksək hazırlıqlı peşəkar zabit və əsgərlərin xidmətini bir daha dünya ictimaiyyəti qarşısında canlandırdı.

***Zümrüd BAYRAMOVA***

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Hacıqabulda vətəndaşları qəbul edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov yanvarın 17-də Hacıqabul şəhərindəki Heydər Əliyev Mərkəzində Şirvan, Kürdəmir, Saatlı, Sabirabad, Salyan, Hacıqabul, Neftçala şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan öncə Arzu Rəhimov və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla anıblar.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda vətəndaşlar əsasən, SHXÇDX-nə həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə əlaqədar müraciət ünvanlayıblar. Qəbulda 25 vətəndaş iştirak edib. Xidmət rəisi, general-leytenant Arzu Rəhimov hər bir müraciəti dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

## Milli Məclisin mədəniyyət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 17-də Milli Məclisin mədəniyyət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Rafael Hüseynov əvvəlcə 2018-ci ilin payız sessiyasında görülmüş işlər barədə hesabatı diqqətə çatdırıb. O bildirib ki, payız sessiyasında komitənin 7 iclası keçirilib, 22 məsələ müzakirə edilib. Sessiya ərzində komitəyə daxil olan müraciətlər müvafiq ünvanlara göndərilib, vətəndaşlar qəbul edilib.



Sonra 2019-cu ilin yaz sessiyasında görüləcək işlər barədə danışılıb. Deputatlar Milli Məclisin 2018-ci ilin payız sessiyasında mədəniyyət komitəsində görülmüş işlər barədə hesabatı qənaətbəxş hesab ediblər. Daha sonra gündəlikdəki digər məsələlərə baxılıb. Əvvəlcə “Milli Arxiv Fondu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Qeyd edilib ki, qanun layihəsi “Dövlət sirri haqqında” Qanunda 2018-ci il iyunun 12-də təsdiq edilmiş dəyişikliklərə uyğunlaşdırma məqsədilə hazırlanıb. İclasda, həmçinin “Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında”, “Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” sazişlərin təsdiq edilməsi barədə qanun layihələrinə baxılıb.

Daha sonra Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin təsvirinin təsdiq edilməsi haqqında”, Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmət keçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanunlarda və Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə edilib. Bildirilib ki, qanun layihələri texniki xarakterlidir və uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, 2018-ci il iyunun 12-də “Sərhəd qoşunları haqqında” Qanunda çoxsaylı dəyişiklik edilib. Eyni zamanda, həmin dəyişikliklər əsasında “sərhəd qoşunları” ifadəsi “sərhəd mühafizə orqanları” ifadəsi ilə əvəz edilib, bundan irəli gələrək “Sərhəd qoşunları haqqında” Qanun “Sərhəd mühafizə orqanları haqqında” Qanun adlandırılıb. Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

## “20 Yanvar faciəsi - Azərbaycanın istiqlal yolunun zirvəsi”

*Bu mövzuda YAP Xaçmaz rayon təşkilatı tədbir keçirib*



***Dünən YAP Xaçmaz rayon təşkilatı Heydər Əliyev Mərkəzi ilə birgə “20 Yanvar faciəsi Azərbaycanın istiqlal yolunun zirvəsi” mövzusunda tədbir keçirilmişdir. Tədbir 20 Yanvar və ümumilikdə, bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.***

Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının idarə heyətinin üzvü, Heydər Əliyev Mərkəzinin direktoru Könül Əskərova açaraq, 20 Yanvar hadisəsi ilə bağlı geniş məlumat verdi. Bildirdi ki, keçmiş Sovet imperiyasının başbilənləri, başda Mixail Qorbaçov olmaqla, Azərbaycan xalqının milli-azadlıq əzmini qırmaq üçün Bakıda kütləvi qırğınlar törətdilər. Ancaq niyyətlərinə nail ola bilmədilər. Xalq öz müstəqilliyinə qovuşdu: “20 Yanvar faciəsinin səhəri günü Ulu Öndərimiz Heydər Əliyev özünün və ailəsinin həyatını təhlükə altına alaraq, Moskvadakı Azərbaycan Nümayəndəliyinə gələrək, imperiya cəlladlarını ittiham etdi və xalqına öz dəstəyini nümayiş etdirdi. Məhz bundan sonra dünya birliyi, beynəlxalq aləm və KİVlər Azərbaycanda törədilən 20 Yanvar faciəsindən geniş məlumat əldə etdilər. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət də, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra verilib”.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov, YAP Xaçmaz rayon təşkilatının şura üzvü, rayon Ağsaqqallar Şurasının sədri Əli Mustafayev, YAP Xaçmaz rayon təşkilatı gənclər birliyinin üzvü, rayon Gənclər və İdman İdarəsinin rəisi Elman Məmmədov və digərləri çıxış edərək, 20 Yanvar hadisəsinin başvermə səbəbləri  və nəticələri barədə geniş məlumat veriblər.

***Rəfiqə***

## Qusarda 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı tərəfindən Qusar rayon Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. İlk olaraq, tədbir iştirakçıları 20 Yanvar faciəsinin qurbanlarının, eləcə də, bütün qəhrəman vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***





Tədbirdə Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvü, YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, bu qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə məlumat verərək, bildirib ki, 1990-cı il yanvarın 20-də Azərbaycan xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucalıblar. O, diqqətə çatdırıb ki, 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ümummilli Lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya adlandırıb: “Hələ Sovet imperiyasının mövcud olduğu bir dövrdə Ulu Öndərin bu cür bəyanatla çıxış etməsi, bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahi şəxsiyyətlər atırlar. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir”. Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, Balaqusar kənd tam orta məktəbin müəllimi Ceyhun Ağabəyov çıxış edərək, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlardan danışıblar.

Tədbirdə məktəblilərin ifasında vətənpərvərlik şeirləri səslənib və 20 Yanvar faciəsindən bəhs edən video-təqdimat nümayiş etdirilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Energetika Nazirliyi: Keçən il 30 milyard kubmetrdən çox təbii qaz hasil edilib



Ötən il Azərbaycanda 30,4 milyard kubmetr təbii qaz hasil olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Energetika Nazirliyinin yaydığı hesabatda deyilir. Bildirilir ki, hesabat ilində proqnozdan 500 milyon kubmetr çox olmaqla 30 milyard 422 milyon kubmetr qaz hasil edilib. Bu həcmin 6 milyard 547 milyon kubmetri SOCAR-ın, 12 milyard 506 milyon kubmetri “Azəri-Çıraq-Günəşli” yataqlarının, 11 milyard 369 milyon kubmetri isə “Şahdəniz” yatağının payına düşüb.

Respublika üzrə qaz idxalı keçən il 1 milyard 798 milyon 200 min kubmetr təşkil edib. Belə ki, İrandan 799 milyon 200 min kubmetr, Rusiyadan isə 999 milyon kubmetr təbii qaz idxal olunub. Hazırda Azərbaycanda gündəlik orta hesabla 110 min ton neft və 94 milyon kubmetr qaz hasil edilir. Bu da dənizdə və quruda istismar edilən yataqlardan, həmçinin xarici şirkətlərlə birgə işlənilən “Şahdəniz”, “Azəri-Çıraq-Günəşli” və “Ümid” yataqlarından alınır.

## Xalq artisti Süleyman Ələsgərovun xatirəsi yad ediləcək



Fevralın 19-da Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Dövlət mükafatı laureatı, professor, Xalq artisti Süleyman Ələsgərovun 95 illiyinə həsr olunmuş “Qarabağ” adlı ədəbi-bədii gecə keçiriləcək.

Sarayın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, “Mədəniyyət” kanalının təşkilatçılığı ilə keçirilən konsertdə unudulmaz sənətkarın bəstələdiyi əsərlər səsləndiriləcək. Konsertdə Süleyman Ələsgərovun musiqisevərlər arasında sevilən “Gözəl Şuşa”, “Gözlə məni”, “Xəyala dalarkən”, “Düşüncə”, “Bilsəm sən gəlirsən”, “Neylərəm”, “Gözləyirəm”, “İlk xatirə” və digər mahnıları, romansları incəsənət ustalarının ifasında təqdim olunacaq. Əsərləri hər bir azərbaycanlının qəlbində əbədi iz qoyan, dahi Üzeyir Hacıbəyli məktəbinin layiqli davamçısı olan Süleyman Ələsgərov milli mədəniyyətimizə bənzərsiz musiqi əsərləri bəxş edib. Biletləri Heydər Əliyev Sarayı və şəhərin kassalarından, eləcə də www.iticket.az saytından onlayn və “ASAN xidmət” mərkəzlərindən əldə etmək olar.

## Konsulluq xidməti ilə bağlı bəzi məsələlərin “ASAN xidmət”ə həvalə olunması müraciətlərin daha operativ həllini təmin edəcək

Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli Fərmanına əsasən konsulluq xidməti ilə bağlı bəzi məsələlər Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə (“ASAN xidmət”) həvalə edilib. AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyi bu məsələyə aydınlıq gətirib.

Nazirliyin mətbuat xidmətinin açıqlamasında bildirilir ki, Prezident İlham Əliyev ölkəmizdə struktur islahatlarının həyata keçirilməsi və idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verib və bu barədə dövlət başçısı Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib. Məhz bu xüsusda, konsulluq sahəsində göstərilən xidmətlərin təkmilləşdirilməsi, şəffaflığın artırılması məqsədilə Azərbaycan Prezidentinin 15 yanvar Fərmanına əsasən müəyyən konsulluq xidmətləri, o cümlədən xidməti və diplomatik pasportların verilməsi və dəyişdirilməsi, sənədə apostil verilməsi və sənədin leqallaşdırılması, viza rəsmiləşdirilməsi üçün xarici ölkələrin səfirliklərinə və konsulluqlarına notanın verilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN xidmət” mərkəzlərində təmin ediləcək. Bu, o deməkdir ki, Xarici İşlər Nazirliyinin əməkdaşları digər dövlət qurumlarının təcrübəsində olduğu kimi, müvafiq müraciətlərin qəbul edilməsi və icra olunması üçün “ASAN xidmət”in təmin etdiyi məkanda yerləşəcəklər. Eyni zamanda, paralel olaraq bu xidmətlər nazirliyin konsulluq idarəsi tərəfindən də təmin olunacaq. Bu dəyişikliyin əsas məqsədi vətəndaşlar və dövlət qulluqçularının müvafiq müraciətlərinin daha operativ və asan şəkildə həll edilməsi, vətəndaş məmnunluğunun təmin edilməsidir.

## Avtomobillərdən oğurluq edən şəxs saxlanılıb



Nəsimi rayonu ərazisində avtomobillərdən oğurluq edən şəxs polis əməkdaşları tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsinin və Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində ayrı-ayrı vaxtlarda 3 avtomobildən pul və mobil telefon oğurlamaqda şübhəli bilinən Füzuli rayon sakini, əvvəllər məhkum olunmuş Ramiz Məmmədov saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Kərki kəndinin ermənilər tərəfindən işğal olunmasından 29 il ötür

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin ermənilər tərəfindən işğal olunmasından 29 il ötür. Yanvarın 18-də keçmiş SSRİ Müdafiə Nazirliyinin 7-ci Ordusunun köməyi ilə muxtar respublikanın Sədərək rayonunun Kərki kəndi ermənilər tərəfindən işğal olunub.***

Xatırladaq ki, 20 Yanvar faciəsi ərəfəsində hiyləgər düşmən Naxçıvan Muxtar Respublikasında işğal planlarını həyata keçirməyə cəhd göstərirdi. Belə ki, 1989-cu il dekabrın 14-də ermənilər tərəfindən güclü atəşə tutulan Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər saat 11 radələrindən etibarən daha intensiv hücumlara məruz qaldı. O vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmişdi. Həmin gün Sədərək ilk dəfə top atəşinə tutuldu. Ermənilərin yanvarın 19-da ciddi-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi isə, onu göstərirdi ki, xain qonşularımız Bakıya qoşun yeridiləcəyindən və bununla da, Naxçıvanın köməksiz qalacağından xəbərdar olublar. Bu isə, SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi.

Kərki və Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olanların sayı saatbasaat artırdı. Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi igidlər ağır döyüşlərdə qəhrəmancasına həlak oldular. Bütün bunlara baxmayaraq, ermənilər gözləmədikləri müqavimətə rast gəldilər və Sədərəyin müdafiə xəttini keçə bilmədilər. Naxçıvanlılar bir yumruq kimi birləşərək, qədim diyarın müdafiəsində iştirak etdilər.

Həmin günlərdə silah-sursat az olsa da, naxçıvanlılar bir addım belə geri çəkilmək barədə düşünmürdülər. Qəhrəman sədərəklilərin kişisi də, qadını da, uşağı da, qocası da torpaq uğrunda ölməyə hazır idi. 1990-cı il yanvarın 18-i səhərə kimi Kərki kəndi inadla müdafiə olundu. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğuna, silah çatışmazlığına və dörd bir tərəfdən mühasirə şəraitində olduğuna görə, vəziyyət faciə ilə nəticələnə bilərdi.



Kərki kəndinin müdafiəçiləri qəhrəmanlıqla vuruşub, son ana qədər düşmənə ciddi müqavimət göstəriblər. Həmin gün kənd səhər saat 4 radələrindən saat 18-19-a qədər şiddətli atəşə tutulub. 30 nəfərədək Kərki sakini Şərur Rayon Polis Şöbəsinin 3 əməkdaşı ilə birlikdə 2 mindən çox silahlı erməniyə qarşı vuruşsa da, döyüş ləvazimatlarının bitməsi səbəbi ilə onlar yaşayış yerini tərk etməli olublar. Kərki də, digər işğal olunmuş ərazilərimiz kimi, xəyanət nəticəsində düşmənin əlinə keçib.

Kərki kəndinin işğalı XX əsrin sonlarında ermənilərin ilk işğalçılıq aktı kimi tarixə düşüb. Ümummilli Lider Heydər Əliyev Naxçıvana gələndən sonra, əhali artıq tam əmin idi ki, düşmən qalib gələ bilməyəcək. Çünki həmin vaxtdan sonra Naxçıvanda ordu quruculuğuna başlanıldı. Bu, naxçıvanlılara cəsarət verdi, səngərlərdə daha inamla dayandılar, düşmənə həddini bildirdilər. Bir sözlə, Sədərək məğlubedilməzlik simvoluna çevrildi.

20 Yanvar hadisələri zamanı Naxçıvanda Sovet ordusunun erməni hərbi birləşmələrinə dəstək verməsinə, SSRİ rəhbərliyinin təcavüzkar hərəkətlərə göz yummasına qarşı ciddi etiraz dalğası yarandı. Qanlı Yanvar qırğınından sonrakı dövr - 1990-cı ilin fevral-may ayları da blokada vəziyyətində olan Naxçıvanda çox gərgin keçdi. Biçənək, Şada, Gərməçataq, Sədərək, Havuş kəndləri erməni hücumlarına məruz qaldı. 1990-1993-cü illərdə ermənilərin 14 hücumu zamanı Sədərək 100-dən artıq şəhid verdi.

Vaxtilə şiddətli döyüşlərin getdiyi bir məkan bu gün sürətlə inkişaf etdirilir. Bu gün sədərəklilər evlərində rahat, təhlükəsiz bir şəraitdə yaşayır və muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər. Çünki ötən əsrin 90-cı illərində Naxçıvanın müdafiəsində öz sözünü demiş bu yurd yeri bu gün də igid və qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Naxçıvanının keşiyində dayanan Əlahiddə Ümumqoşun Ordu bu gün istənilən hərbi vəzifəni yerinə yetirmək qüdrətindədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: “Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda, Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.

Bu gün Sədərəkdə ötən əsrin 90-cı illərində baş verən hadisələrin yenidən təkrarlanması mümkün deyil. Bu gün Naxçıvan sürətlə inkişaf etmiş, qüdrətli məkandır. Müasir dövrümüzdə müasir və yüksək standartlara cavab verən Azərbaycanın Milli Ordusu regionun ən güclü ordusu səviyyəsinə yüksəlib. Azərbaycan Ordusunun 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi birləşmələrinin döyüşçüləri çox böyük qəhrəmanlıqla üç gün davam edən əməliyyatlar nəticəsində, 11 min hektar ərazini ermənilərdən azad etdi. 2016-cı ilin aprel savaşında 2 min hektar Azərbaycan ərazisi işğaldan azad edilmişdisə, daha sonra əsgərlərimiz 11 min hektar ərazini işğaldan azad etdi. Strateji əhəmiyyət kəsb edən yüksəkliklər silsiləsinin geri qaytarılması Azərbaycan üçün çox böyük önəm daşıyır. Bütün bunlar, ordumuzun işğalda olan torpaqlarımızın bir qismini düşməndən azad etməsi Kərkinin də tezliklə azad olunacağından xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# BSU-da 20 Yanvar faciəsi anılıb




Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən, artıq 29 il keçir. 1990-cı ilin 20 Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı və müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmış qanlı 20 Yanvar faciəsi istər respublikamızda, istərsə də ölkəmizin hüdudlarından kənarda soydaşlarımız tərəfindən qeyd olunur.

Bakı Slavyan Universitetində Qanlı Yanvarda şəhid olan soydaşlarımızın xatirəsi yad olunub, universitetin foyesində stend hazırlanıb. Stenddə 20 Yanvar hadisələrini əks etdirən fotoşəkillər, Qanlı Yanvar faciəsindən bəhs edən müxtəlif dillərdə yazılmış kitablar sərgilənib.

***ZÜMRÜD***



Təhmasib Novruzov

# Dindirdi əsr bizi...

*(20 Yanvar tariximizə dair düşüncələr)*

Hələ ötən əsrin əvvəllərində böyük şairimiz Mirzə Ələkbər Sabir yazmışdı: “Dindirir əsr bizi, dinməyiriz. Atılan toplara diksinməyiriz.” Bütün bəşəriyyət üçün təlatümlərlə dolu, dünya tarixinin ən önəmli hadisələrinin baş verdiyi XX əsr, bütün bəlalarla birgə həm də millətlərin oyanışı, xalqların özünə, öz tarixinə dönüş əsri kimi qaldı yaddaşlarda.

Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, dünya tarixində baş verən iki cahan müharibəsinin hər ikisi bu əsrin payına düşdü. İxtiralar, tərəqqi, milli oyanış əlamətləri ilə xarakterizə olunan bu əsr, həm də ən çox insan qanının axıdılması faktı ilə tarixin yaddaşına hopdu. Dünyada gedən təlatümlü prosesləri görərək, millətimizin hələ də əsarətdə qalmasını, azadlığı uğrunda savaşa qalxmadığını ürək ağrısı ilə seyr edən o dövrün ən böyük mütəfəkkirlərindən olan M.Ə.Sabir yuxarıda qeyd elədiyimiz iki misra ilə sanki xalqını savaşa səsləyirdi. Nəhayət, azadlığı uğrunda ayağa qalxan xalq, həmin dövrdə 300 illik tarixi olan Romanovlar sülaləsinin devrilməsindən yararlandı və müstəqil respublikasını qurdu. Fəqət, cəmi 23 ay yaşamasına imkan verildi. Çar Rusiyasının digər üzü olan Sovet Rusiyası da müstəmləkə siyasətini davam etdirdi və gənc Azərbaycan Respublikasını yenidən işğal etdi. Bununla belə artıq oyanan, “əsrin dindirməsinə dinən” xalq 71 il Sovet rejimi ilə savaşdı. Minlərlə siyasi qurbanlar versə də, ildən-ilə mətinləşdi və mübarizə əzmini artırdı. 1970-ci illərdə İttifaq tərkibində olsaq da, özünün nüfuzundan maksimum yararlanan Ulu Öndər Heydər Əliyev milli ruhun inkişafına yönələn çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın azərbaycanlılara və dünyaya tanıdılmasında əvəzsiz xidmətlər göstərdi. Ulu Öndər yaxşı bilirdi ki, milli özünüdərk, milli özünəgüvən olmadan heç bir xalq azadlığı uğrunda savaşa atılmaz. Məhz ötən əsrin 70-ci illərində yüksələn milli ruh, 80-ci illərdə xalqımızın Sovet rəhbərliyində yaranan boşluqdan faydalanaraq, müstəqilliyinə qovuşmaq uğrunda savaşa qalxmasına təkan verdi. Önümüzə yuvarlanan Dağlıq Qarabağ kimi ağır kötüyü də yolundan təmizləməyə çalışan xalq bütün məqamlarda o zamankı Sovet rəhbərliyinin ciddi təzyiqi ilə üz-üzə gəlməli oldu. Fəqət, heç bir təqib və təzyiq xalqı yolundan döndərə bilmədi. Artıq Azərbaycanın “əldən getmək” üzrə olduğunu yəqin edən imperiya başçıları Azərbaycan xalqına daha ağır “dərs” vermək qərarına gəldi. Xüsusilə, 1989-cu il noyabr ayında xalqın təzyiqi ilə Azərbaycan SSR Ali Sovetində “Azərbaycanın suverenliyi haqqında Konstitusiya Aktı”nın qəbul edilməsi imperiyanın dağılmasının ilkin əlamətlərindən idi və bunu həzm edə bilməyən Kreml hələ 1989-cu ilin sonlarından başlayaraq, respublikamıza ciddi dərs vermək planı qurdu. Həmin plana uyğun olaraq, Bakıda süni şəkildə “erməni qırğını” ssenarisi həyata keçirildi və “qırğın”ın qarşısını almaq adı ilə Bakıya Sovet ordusunun böyük bir kontingenti yeridildi. Silahsız, dinc əhalinin üzərinə xüsusi təyinatlılardan və digər qoşun birləşmələrindən ibarət belə bir kontingentin yeridilməsi, əslində, Moskvanın, bütövlükdə, xalqı susdurmaq istəyindən xəbər verirdi. Lakin xalq dünyanı qorxu altında saxlamağa qadir olan bu ordudan qorxmadığını, silahsız olsa belə, ona müqavimət göstərmək əzmində olduğunu ortaya qoydu. Yüz illər boyu azadlıq uğrunda aparılan qanlı savaşların pik nöqtəsi oldu 20 YANVAR! Məhz həmin gün xalqımız təkcə imperiya başçılarına - Mixail Qorbaçov kimi türk düşməninə deyil, bütün dünyaya sübut etdi ki, bəşəriyyətə böyük dühalar bəxş etmiş, bütün sivilizasiyalarda əvəzolunmaz tarixi xidmətləri ilə dünyanın inkişafına misilsiz töhfələr vermiş bu xalqı topla və raketlə susdurmaq mümkün deyil. Sübut etdi və azadlığına qovuşdu. Odur ki, 20 Yanvar faciəsi xalqımızın tarixinə, sadəcə, bir faciə, bir qətliam kimi deyil,hünər, rəşadət və qəhrəmanlıq tariximizin şanlı səhifəsi kimi daxil oldu. Allahdan şəhidlərimizə rəhmət, xalqımıza dəyanət diləyirəm. Çünki mübarizəmiz hələ bitməyib. Dünən bir, həm də məlum düşmənimiz var idi - Sovet İmperiyası və onun özünü xalq adlandıran qulbeçələri. Bu gün isə Müstəqil Azərbaycanın sürətli inkişafını həzm edə bilməyən və özünü dost kimi qələmə verməyə çalışan onlarla düşmənlərimiz qazır ayaqlarımızın altını. 20 Yanvar şəhidlərinin, ümumən, Azərbaycanımız uğrunda mübarizələrdə canını fəda edən bütün şəhidlərimizin ruhu naminə biz daha dözümlü, daha müdrikcəsinə və daha böyük rəşadətlə savaşımızı son və qəti qələbələrə doğru davam etdirməliyik. Tanrı bu müqəddəs yolda bizə yar olsun! AMİN!

TƏRS BAXIŞ

# Əli Kərimlidən hava şousu

## Yaxud indi də "günahkar" şimal küləyi imiş

**AXCP sədri Əli Kərimlinin havanın həddindən artıq pisləşməsi ilə bağlı müvafiq qurumların verdiyi xəbərdarlığının ardınca dərhal klaviatura arxasına keçərək, sözügedən informasiyaları "Milli Şura"nın mitinqi ilə əlaqələndirməsi, guya bu addımın insanların mitinqə qatılmamalarına hesablanması iddiaları, əslində, bu adamın, həqiqətən də, qeyri-normal, məntiqsizlik psixologiyasına malik şəxs olduğunu növbəti dəfə təsdiqlədi. Ən kiçik məişət hadisəninin baş verməsi səbəblərini hakimiyyətin üzərinə yıxmağa cəhd edən Ə.Kərimlinin bu cür davranışları reallıqda onun acizliyinin və zəifliyinin aşkar göstəricisidir.**

### Heç özləri belə öz aksiyalarına inanmırlar

O da bəllidir ki, havaların kəskin pisləşməsi ilə bağlı verilən proqnoz yanvar ayının 17-18-nə qədər davam edəcəyini göstərir və bizim də bildiyimiz qədər, "Milli Şura"nın aksiyası həmin günlərə təsadüf etmir. Lakin Ə.Kərimlinin və onun sosial şəbəkə trollarının, hətta hava proqnozlarından öz maraqlarına istifadə etmək cəhdləri onların öz "siyasi aksiyaları"na inamsızlıqlarını da sərgiləmiş olur. O da əbəs deyil ki, Ə.Kərimlinin və trollarının qeyd edilən məsələ ətrafındakı uğursuz manipulyasiyaları elə öz tərəfdarları tərəfindən də qınanılıb.

### Əli Kərimli öz tərəfdarlarının da istehzalarına tuş gəlib

Məsələ ondadır ki, bəziləri öz statuslarında siyasəti bu qədər ucuzlaşdırmağın doğru seçim olmadığını yazırlar. Nəticədə, Ə.Kərimlinin və "Milli Şura" yetkililərinin hakimiyyətə qarşı



cızdıqları sözügedən planları da realizə olunmamış qalıb, hətta öz tərəfdarları tərəfindən də istehza hədəfinə tuş gəlib.

Gerçəklik həm də budur ki, bənzər gülünc "siyasi mübarizə" üsulları ilə, ümumiyyətlə, heç nə əldə edə bilmədiklərini dolayısı ilə etiraf edən Ə.Kərimli və onun yan-yörəsindəkilər, artıq bitkin fərdlər olduqlarını da dərk edirlər. Belə bitkinlərin hava proqnozları şouları üzərindəki hay-küyləri, sərsəm iddiaları da belə bir amillərə əsaslanmaqdadır.

*Rövşən NURƏDDİNOĞLU*

# Arif Hacılının xəstəliyinin səbəbi bəlli oldu

## Müsavat başqanı partiyanın qapalı toplantısında əsəb stressi keçirib və səhhəti pisləşib



**Müsavat partiyasının başqanı Arif Hacılının səhhətində yaranmış problemlərdən sonra onun Türkiyəyə müalicəyə aparılması məlumatı ətrafında maraqdoğurucusu detallar üzə çıxmaqdadır. Belə ki, Müsavatın mətbuat xidməti partiya rəhbərinin Türkiyəyə aparılması ilə bağlı informasiyasında bildirib ki, Arif Hacılının səhhətindəki problem onun ürək-damar sistemi ilə bağlıdır.**

### Partiyanın 9-cu qurultayının keçirilməsi ilə bağlı aylar öncə verilən tapşırıqlar və hazırlıq prosesi yerinə yetirilməyib

Adıçəkilən partiyada bəlli səbəblərə görə adının anonim qalmasını istəyən mənbə xəbər verib ki, başqanın səhhətindəki problem son vaxtlar Müsavat daxilində yaranmış ziddiyyətli vəziyyətlə əlaqəlidir. Belə ki, partiyadaxili qruplaşmaların müxtəlif məsələlərdə ortaq məxrəcə gələ bilməmələrindən doğan qarşıdurmalar, eləcə də, strukturların öz işlərinin öhdəsindən gələ bilməməsi ilə bağlı keçirilən qapalı toplantıda əsəb stressi keçirən Hacılının səhhəti anidən pisləşib və o, bir neçə gün həkim nəzarəti altında olub. Ancaq sonradan qərar verilib ki, Müsavat başqanı Türkiyədə fəaliyyət göstərən xəstəxanalardan birinə yerləşdirilsin. Mənbə, həmçinin, qeyd edib ki, partiyanın 9-cu qurultayının keçirilməsi ilə bağlı, aylar öncə, verilən tapşırıqlar və hazırlıq prosesi yerinə yetirilməyib, Müsavatın bölgə təşkilatları qarşıya qoyulan məqsədlərə nail ola bilməyiblər.

### Bir sıra müsavatçı yetkililər İsa Qəmbərin yenidən başqanlıq postuna geri dönməsinin tərəfdarı kimi çıxış edirlər

Bundan əlavə, mənbə qeyd edib ki, bir müddət əvvəl, Müsavatın sabiq başqanı İsa Qəmbərin, partiyanın 9-cu qurultayında başqanlığa namizədliyini irəli sürəcəyi ilə bağlı fikirləri istisna etməməsi onunla A.Hacılı arasındakı körpüləri yandırıb. Bu günün özündə də, bir sıra müsavatçı yetkililər İ.Qəmbərin yenidən başqanlıq postuna geri dönməsinin tərəfdarı kimi çıxış edirlər.

Başqa tərəfdən, fakt budur ki, A.Hacılı başqanlığı dönəmində, İ.Qəmbərin inamından sui-istifadə edərək, partiyadaxili qrup yaradaraq, şəxsi mənfəətləri üçün fəaliyyət göstərib. Bu isə, İ.Qəmbərin ciddi narazılığına səbəb olub. Bu gün bir sıra müsavatçıların partiyadan istefa verərək, ayrı-ayrı siyasi təşkilatlarda siyasi fəaliyyət göstərmələri də Hacılının "ayağına" yazılıb. Mənbə, bu və digər məsələlərlə bağlı uzun müddətdir ki, davam edən hərc-mərcliklərin, nəticədə, A.Hacılının əsəb sarsıntısı keçirməyi ilə nəticələndiyini deyib və onun Türkiyəyə müalicəyə də o səbəbdən getdiyini bildirib. Beləliklə, fakt budur ki, Hacılının partiyanı rəhbər kimi idarə etmək gücü, ümumiyyətlə, yoxdur və bunun nəticəsidir ki, təşkilatdaxili savaşlar sonda onun səhhətinə də ciddi zərbə vurmuş olub.

*Rövşən NURƏDDİNOĞLU*

# İnkişafımıza mane olmaq cəhdi milli şərəfsizlikdir

**Müxalifət yanvarın 19-da mitinq keçirmək iddiasındadır. Bunu sosial şəbəkələrdə yaydıqları müxtəlif məzmunlu hay-küylü yazılar da göstərir. Məhz 1990-cı il 20 Yanvar faciəsi ərəfəsində dağıdıcı müxalifətin aksiya keçirməsi bəzi suallar doğurur. Bu suallara aydınlıq gətirmək məqsədilə, bir vaxtlar Milli Azadlıq Hərəkatının öncüllərindən olmuş, "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri Təhmasib Novruzova müraciət etdik. Onun sözlərinə görə, müxalifətin mitinq şousu baş tutmayacaq.**

Açığını deyim ki, uzun illər azadlıq uğrunda savaşda birgə addımladığım köhnə "dostlar"ımı başa düşməkdə çətinlik çəkirəm. Bəzilərinin sökülən maskaları simasını olduğu kimi göstərdi və onlar üçün Vətən, millət, istiqlal anlayışının, sadəcə, maraqlarına çatmaq yolunda bir vasitə olduğunu anladım: "Çox qəribədir ki, maskaları tamamilə cırıq-cırıq olmuş ləyaqətini itirmiş məxluqlar da toy toğlusu kimi ortaya düşməkdən utanıb-çəkinmirlər. Mən bu adamabənzərlərə bir sual vermək istəyirəm. Bizim savaşımız Müstəqil Azərbaycan uğrunda gedirdi. Əldə elədiyimiz müstəqilliyi, məhz sizlərin vəzifə və hakimiyyət ehtirasına qurban vermək ərəfəsində Tanrının göndərdiyi Ulu Öndər Heydər Əliyev gəldi və bizim arzularımızı reallaşdırdı. Bunu etiraf edib, ruhuna dua etmək, qoyub getdiyi siyasi kursa dəstək vermək əvəzinə, bütün olmayan gücünüzü səfərbər edib, bu kursa qarşı çıxmağın anlamı nədir? Sizlər, elə mən özüm də milli-azadlıq hərəkatı zamanı ağlımıza da gətirməzdik ki, cəmi 15-20 il ərzində, uğrunda savaşdığımız Azərbaycan bu qədər sürətlə inkişaf edə, regionun lider dövlətinə, dünyanın sayılıb-seçilən söz sahiblərindən birinə çevrilə bilər. Bizim xəyal edə bilmədiklərimiz bu gün reallıqdır və bunu hər kəs görür. Hər kəs deyəndə, yəni sevinən dostla-



rımız da görür, narahat olan düşmənlərimiz də. Səksəninci illərin ab-havası ilə yaşamaqda davam edərək, mitinq hobbinizi öldürmək xatirinə, məmləkətimizin inkişafına nə qədər mane olduğunuzun fərqindəsinizmi? Problemlər, əyər-əskiklər var, lakin sizlərdən fərqli olaraq bu problemləri aradan qaldırmaq yolunda indiki iqtidar, başda ölkənin başçısı olmaqla, bütün imkanlardan istifadə etməyə çalışır. Bunu görməmək korluq, ancaq görüb mane olmağa yönəldilmək fəaliyyət göstərmək nankorluqdur." T.Novruzov bildirdi ki, həmişə olduğu kimi, yenə xalq bu aksiyaya qoşulmamaqla müstəqil dövlətimizin sürətli inkişafına dəstək mövqeyini bir daha nümayiş etdirəcək: "Ancaq milçək bir zərər vura bilməsə də, ürək bulandırır. Milçək rolunun ifaçıları, nəhayət, bunu anlasalar, yaxşı olar. Bu gün heç kəsə sirr deyil ki, bu cür aksiyalar anti-Azərbaycan qüvvələrin, eləcə də korrupsiyaya qurşandıqlarına görə, vəzifələrindən atılmış harın oliqarxların sifarişidir. Bu sifarişlərə boyun əymək, beş-on manata milli şərəfini satmaq anlamına gəlir. Azərbaycan kifayət qədər demokratik cəmiyyətdir və hər kəs istənilən məsələyə dair fikirlərini, təkliflərini irəli sürməkdə azaddır. Mövcud bu şəraitdən sui-istifadə edib şər-böhtan kampaniyası aparan bəzi buqələmunlara da özlərinə qayıtmaq üçün imkan verilir. Bundan Azərbaycana zərər vuracaq səviyyədə istifadə etmək milli dövlətimizə, onun beynəlxalq aləmdəki nüfuzuna xələl gətirən amildir ki, bunu da ancaq və ancaq bu xalqı sevməyənlər istəyir. Bu xalqı sevməyənlərin dəyirmanına su tökənlərin bulağının gözünü qurutmaq gərəkdir. Bunu da xalq belə aksiyalara münasibətilə reallaşdırır. Əminəm ki, yenə reallaşdıracaq. Sonda, ən azı 20 Yanvar ərəfəsində milli birliyimizə xələl gətirə bilən addımlardan çəkinmək lazımdır. Yoxsa bu adamabənzərlər bunu da yaddan çıxarıblar?"

*GÜLYANƏ*

# Ukrayna Səhiyyə Nazirliyi: epidemiya mövsümündə 19 nəfər qripdən ölüb



Yanvarın 7-13 tarixlərində Ukraynada 176381 nəfər qrip xəstəliyinə tutulub, onlardan 51,8 faizi 17 yaşa qədər uşaqlardır. Bu müddətdə qripdən 8 nəfər ölüb. Bu barədə Ukraynanın Səhiyyə Nazirliyi məlumat yayıb. Epidemiya mövsümü başlayandan isə Ukraynada qripdən 19 nəfər ölüb, onlardan 3-ü 17 yaşa qədər olan uşaqlardır. Qrip virusu əsasən Ukraynanın Çerniqov, Jitomir, Sumı və Odessa vilayətlərində yayılıb.

# Fransada Lion universitetinin binası yanıb



Dünən səhər saatlarında Fransada Lion universitetinin kampusunda yanğın baş verib. Bu barədə məlumatı BFMTV telekanalı yayıb. Telekanalın bildirdiyinə görə, əvvəlcə kampusdakı binaların birinin damı yanmağa başlayıb, sonra terrasda saxlanılan bir neçə qaz balonu partlayıb. Binadakı insanlar təxliyə edilib və yanğın nəzarət altına alınıb. Tələbə şəhərciyindəki bir neçə binaya giriş məhdudlaşdırılıb. Universitetin Twitter səhifəsində hadisə zamanı üç nəfərin yüngül xəsarət aldığı barədə məlumat verilib.

# Orta əsrlərdə qadın hüquqları

***Azərbaycan diplomatiyasının çiçəklənməsi orta əsrlərdə, xüsusilə də, Ağqoyunlular dövləti ilə başladı. Uzun Həsənin dövründə Azərbaycanın Şərq-Qərb əlaqələrindəki rolu daha da artdı. Azərbaycan ənənəvi əlaqələr saxladığı Şərq ölkələrindən başqa, Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratdı. O zaman Ağqoyunlular dövlətinin dünyanın 30-dan çox ölkəsində daimi səfirliyi fəaliyyət göstərirdi. Azərbaycan Şərqlə Qərb üçün ümumi maraq doğuran beynəlxalq problemlərin həllində mühüm rol oynayırdı.***

Bir diplomat kimi Sara Xatunun fəaliyyətində onun Sultan II Mehmetlə bağladığı 1461-ci il sülhünün böyük əhəmiyyəti var. Bu sülh, hələlik, əlimizdə olan məlumata görə, Sara Xatunun xarici ölkə hökmdarları ilə bağladığı ilk müqavilələrdən biridir. Uzun Həsən Sara Xatunu Sultan II Mehmetin hərbi düşərgəsinə göndərərkən, onun qarşısına iki çətin vəzifə qoymuşdu. Əvvəla, o, Osmanlı sultanını Ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırmalı idi. Çünki II Mehmetin bu hücumu Ağqoyunlu dövlətinin varlığına son qoya bilərdi. Bu məqsədə nail olduqdan sonra Sara Xatun sultanı mümkün qədər Trabzonu fəth etmək fikrindən döndərməli idi. Bütün Yaxın və Orta Şərqdə böyük nüfuzu olan Sara Xatun Osmanlı sultanının hərbi düşərgəsində yaxşı qarşılanır. Mənbələrin məlumatına görə, diplomatik danışıqlar zamanı Sara Xatun və II Mehmet bir-birinə "ana", "oğul" deyə müraciət edirmişlər. Sara Xatun bu danışıqlar zamanı özünün bütün diplomatik ustalığından istifadə edərək, Uzun Həsənin birinci tapşırığını yerinə yetirə bilir. II Mehmeti Ağqoyunlu dövlətinə qarşı müharibə etmək fikrindən daşındırır. İki ölkə arasında, Osmanlı qoşunlarının Trabzona hücumu zamanı Ağqoyunlu dövlətinin bitərəf qalması şərtilə sülh bağlanır. Bu sülhün o zaman Ağqoyunlu dövləti üçün böyük əhəmiyyəti olmuşdu. Məhz Sara Xatunun bağladığı bu müqavilə nəticəsində, o zaman Türkiyə ilə toqquşmağa qadir olmayan kiçik Ağqoyunlu dövləti öz müstəqilliyini saxlaya bilmişdi. Lakin Sara Xatun ona tapşırılmış ikinci vəzifəni yerinə yetirə bilmədi. Sultanı Trabzon yunan dövlətini Türkiyəyə qatmaq fikrindən daşındıra bilmədi.

Ağqoyunlu dövlətini təcrid etdikdən sonra II Mehmet Trabzon üzərinə yeridi. Lakin o, Uzun Həsənin arxadan hücum etməyəcəyinə əmin deyildi. Odur ki, sultan Sara Xatun başda olmaqla, Ağqoyunlu elçilərini də özü ilə götürdü. Sara Xatun yol boyu sultanı Trabzonu fəth etmək fikrindən çəkindirməyə çalışdı. Lakin onun səyləri heç bir nəticə vermədi. Dənizdən Osmanlı donanması tərəfindən mühasirə edilən Trabzon 30 günlük mühasirədən sonra, 1461-ci il oktyabrın 26-da türklər tərəfindən zəbt edildi. Qara dənizdə Genuya ilə rəqabət aparan mühüm ticarət mərkəzi süqut etdi. Artıq Trabzonun əldən getdiyini görən Sara Xatun öz gəlininin - Dəspinə xatunun Trabzonun taxtına varislik hüququnu irəli sürdü. Trabzon xəzinəsini sultanla bölüşdürdükdən sonra Ağqoyunlu elçilərinin başında geri qayıtdı. Görünür, Ağqoyunlularla kəskinləşən münasibətləri yumşaltmaq üçün II Mehmet Sara Xatuna xoş rəftar göstərmiş, onu çoxlu hədiyyə ilə geri yola salmışdı. Uzun Həsənin elçiləri ilə birlikdə Yastıçəməndə bağlamış müqavilə ilə sultan Qərbdəki istilalarını həyata keçirmək üçün öz arxasını təhlükəsizləşdirmək istəyirdi.

Teymuri hökmdarı Əbu Səidlə danışıqlar aparan Ağqoyunlu elçilərinə də Sara Xatun başçılıq etmişdir. Avropa ölkələri də bu azərbaycanlı xanımı çox yaxşı tanıyır, ona böyük ehtiramla yanaşırdılar. Azərbaycana göndərilən Avropa, xüsusilə də, Venesiya elçilərinə verilən məxfi məlumatlarda mütləq Sara Xatunla görüşmək və öz məqsədləri üçün onun saraydakı nüfuzundan istifadə etmək tapşırılırdı. Sara Xatun diplomat və dövlət xadimi olmaqla bərabər, böyük hərbi sərkərdəlik bacarığına və hərbi intuisiyaya malik qadın idi. Onun əqli çevikliyi dar məqamlarda tez qərar çıxarmağa imkan verirdi. Sara Xatun qeyrətli qadın, diplomat və hərbi istedada malik bir insan olmuşdur.

Ağqoyunlu dövrünün ən görkəmli tarixçisi Əbubəkr Tehrani yazır ki, Sara Xatun Qaraqoyunlu Cahanşahla danışıqlar aparmaq məqsədilə onun yanına gəlmiş, bu zaman Rüstəm Tərxanın düşərgəsində olmuşdur. Onun ordusu Sara Xatuna o qədər də əzəmətli görünmədiyindən, Cahangir mirzə və Uzun Həsənə sifariş göndərir ki, "əgər gəlsəniz, qələbə sizin olacaq. Bu işi təxirə salmaq olmaz". Sara Xatunun orduya, sadəcə, nəzər salmaqla qüvvələr nisbətinin Ağqoyunlu dövlətinin xeyrinə olduğunu düzgün qiymətləndirməsi onun hərbi intuisiya və səriştəsindən xəbər verir. Həqiqətən də, bundan sonra Uzun Həsənin kəşfiyyat dəstəsi Rüstəm Tərxanın ordularına hücum edərək onları darmadağın etmiş, Qaraqoyunluları bərk qorxuya salmışdı.

O dövrdə Azərbaycan tarixində belə mərd və cəsarətli, diplomat qadınlarımızın mövcudluğu qürur doğurur. Sara Xatun uzaq tarixi keçmişimizdə yaşasa da, onun siyasi mədəniyyəti, diplomatik fəaliyyəti və şəxsi şücaəti gələcək nəsillər üçün də örnəkdir.

## Siyasətçi, şairə qadınlarımız

Azərbaycanın Qaraqoyunlu dövlətinin hökmdarı Qara Yusifin arvadı Ələykə Könüldaş da öz qəhrəmanlığı, cəsurluğu ilə ad çıxarmışdı. Əri ilə birlikdə, o, 1421-ci ildə Təbriz yaxınlığında Sultan Şahruxun ordusuna qarşı döyüşlərdə fəal iştirak edirdi.

Qeyri-rəsmi diplomatik missiyada Azərbaycanın Səfəvilər dövlətinin hökmdarı Şah İsmayıl Xətainin qızı Məhinbanu Sultanım xanımın (XV əsr) xidmətlərini xüsusi qeyd etmək lazımdır. Türkiyə və Səfəvilər dövləti arasında münasibətlərin kəskinləşdiyi dövrdə hərtərəfli təhsil görmüş, qeyri-adi xeyirxahlığı, sülhpərvər xasiyyəti ilə seçilən Məhinbanu xanım məktubla türk sultanının qızına müraciət edərək, hər iki hökmdarın hərbi əməliyyatlardan əl çəkərək, bütün münaqişəli məsələləri sülh yolu ilə həll etməsi üçün onu öz atasına təsir göstərməyə çağırmışdı.

I Şah İsmayılın qızı, Şirvanşah Xəlilullahın arvadı Pərixan xanım dövlət işində özünün çevik siyasəti ilə seçilərək, Şirvan xanlığını Səfəvilər dövlətinə birləşdirmək üçün xüsusi bacarıq nümayiş etdirmişdi.

> “Tarixdə iz qoymuş Azərbaycan qadınlarından biri də Quba xanı Fətəli xanın xanımı Tuti Bikədir. Onun anadan olduğu tarix məlum deyil, lakin 1786-cı ildə öldüyü məlumdur. Qaraqaytaq hakimi Əmir Həmzənin bacısıdır. 1776-cı ildə Fətəli xan Gavduşan düzündə Əmir Həmzə ilə döyüşə gedərkən, Dərbənd şəhərini idarə etməyi Tuti Bikəyə tapşırmışdı”

Tarixdə iz qoymuş Azərbaycan qadınlarından biri də Quba xanı Fətəli xanın xanımı Tuti Bikədir. Onun anadan olduğu tarix məlum deyil, lakin 1786-cı ildə öldüyü məlumdur. Qaraqaytaq hakimi Əmir Həmzənin bacısıdır. 1776-cı ildə Fətəli xan Gavduşan düzündə Əmir Həmzə ilə döyüşə gedərkən, Dərbənd şəhərini idarə etməyi Tuti Bikəyə tapşırmışdı.

Gavduşan döyüşündən qalib çıxan Əmir Həmzə Dərbəndə yol alır. Əsas məqsəd Dərbəndi ələ keçirmək idi. O, qalanın divarlarına yaxınlaşan zaman döyüşdə həlak olanlardan birini kəfənə tutub təmtəraqla şəhərə tərəf aparmağa başladı. Bu zaman artıq Tuti Bikəyə Fətəli xanın döyüşdə həlak olduğu barədə yalan xəbər göndərilmişdi. Buna baxmayaraq, Tuti Bikə qardaşına inanmır. Bu, Əmir Həmzənin ikinci və yenə də uğursuz hiyləsi idi. Fətəli xanın şir ürəkli xanımı əyninə hərbi paltar geyinib, bütün qalanı döyüşə hazır vəziyyətə gətirir. Onun cəsurluğu Dərbənd əhalisini ruhlandırır. Hər kəs qalanın müdafiəsi uğrunda ölənə qədər vuruşacağını qət edir. Əmir Həmzə isə təmtəraqlı yas mərasimi ilə qoşunun qarşısında qalaya doğru yaxınlaşır. Birdən Tuti Bikə qala divarlarına qoyulan toplardan atəş açmaq əmri verir. Toplardan açılan birinci zərbə Əmir Həmzənin yalanına tuşlanmışdı. Yalan taktikası baş tutmadı. Hətta bəzi müəlliflərin yazdıqlarına görə, Tuti Bikə qala divarından onu aldatmağa çalışan qardaşına demişdi: "Sən yalanı da düz-əməlli danışa bilmirsən. Fətəli xan sənin düzəltdiyin bu kiçik tabuta sığışa bilməz. Fətəli xan sağdır". Danışıqlar və hücumlar nəticəsiz qalır. Dərbəndin mühasirəsi doqquz ay davam edir. Bu müddətdə Əmir Həmzə qoşun çəkib Bakı qalasına hücum etməyə də vaxt tapır. Lakin burada da qala divarları onun üçün həddən artıq hündür olur. Bakı Əmir Həmzəni məğlub edir. Bundan əvəz çıxmaq üçün o, hücum edib Bakı kəndlərini viran qoyur. Sonra yenə Dərbənd qalasına dönür, burada o, mühasirəni davam etdirir. Doqquz ay dağlarda, soyuq və isti fəsillərdə mühasirəyə davam gətirmək bir həqiqətdən xəbər verir: Tuti Bikənin əzmkarlığı və tabeliyində olan adamlara təsir etmək gücündən. Onun cəsurluğu Fətəli xana da məlum idi. Dinc vaxtlarda xan qalanın idarəsini öz xanımına həvalə edirdi. İndi isə vaxt gedir, mühasirəyə davam gətirmək üçün qüvvə tükənirdi. Bununla belə, Azərbaycan qadınının rəhbərliyi ilə Dərbənd bu sınaqdan uğurla çıxdı.

Dərbəndin alınmaz qalması Azərbaycan tarixində adı əfsanəyə çevrilən Tuti Bikənin qəhrəmanlığı ilə bağlanmalıdır. Fətəli xanın Dərbəndin Qırxlar qəbiristanlığında arvadının şərəfinə tikdirdiyi türbə bu gün də ziyarət olunmaqdadır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# “Nar” paytaxtda yeni rəsmi mağazasını təqdim etdi




“Nar” paytaxtda yeni mağazasını təqdim etdi. Müasir konseptə uyğun olaraq açılan “Nar” mağazası şəhər və ətraf ərazilərdə yaşayan müştərilərin rahatlığı və onlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədini daşıyır. Mağaza Bakı şəhəri, Xətai rayonu, M.Hadi 26C (H.Aslanov metrostansiyasının çıxışında) ünvanında yerləşir. Qeyd edək ki, mağazada müştərilərə nömrələrin satışı, internet paketlərinin alışı ilə yanaşı, diler əməkdaşı tərəfindən müxtəlif yüksəkkeyfiyyətli müştəri xidmətləri göstərilir.

Yeni dükanın təqdimatı ilə əlaqədar olaraq, yanvar ayının sonuna qədər mağazadan “Nar” nömrə alan müştərilərə ikinci nömrə hədiyyə veriləcək. Bundan başqa, telefon və aksesuar alan müştərilərə də “Nar” nömrələri hədiyyə olunacaq. Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan mobil operator, mağazada təqdim etdiyi müxtəlif təkliflərlə “Nar” istifadəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir.

Mağazaların ünvanı və xidmətlər haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar. “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Şahmat ömrü uzadır

Avstraliya mütəxəssisləri müəyyən ediblər ki, şahmat oynamaq aydın zəka və fəal həyat tərzi tələb edir. Bu amillərin məcmusu şahmatçıların hətta idmanın fiziki növlərinin nümayəndələrindən də çox yaşamasına imkan verir.

Melburn Universitetinin mütəxəssisləri uzunömürlülüyün reseptini müəyyən ediblər. İdmanın intellektual növləri ilə məşğul olmaq ömrü yeddi il uzadır. “360” kanalı xəbər verir ki, söhbət, o cümlədən şahmatdan gedir.

Alimlər tədqiqatın gedişində 16 min şahmatçının sağlamlıq durumunu təhlil ediblər. Bu barədə məlumatı şahmat oynamayan adi insanın göstəriciləri ilə müqayisə ediblər. Məlum olub ki, şahmat həvəskarları bu sahədə hətta idmanın fiziki növləri ilə məşğul olan rəqiblərindən də üstündürlər.

## Ən faydalı on göyərti

Aparılan tədqiqatlar nəticəsində insan orqanizmi üçün ən faydalı on göyərtinin adı açıqlanıb. AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, alimlər həmin siyahıya yaşıl kələm, kahı, cəfəri, zəncəfilotu, ispanaq, çuğundur yarpağı, pazı, Çin kələmi, tərə və tərxunu daxil ediblər.

Müxtəlif mineral və vitaminlərlə zəngin olan həmin göyərtilər həzm sisteminə yaxşı təsir edir, beynin inkişafını gücləndirir, sümükləri möhkəmləndirir, toxumaları yaxşılaşdırır. Onlarla qidalanmaq damar divarındakı problemləri də aradan qaldırır, qanı təmizləyir.

## ELAN

“Nobel qardaşları” adına sanatoriyanın möhürü itdiyi üçün etibarsız sayılır.

# səs

Son səhifə — 18 yanvar

## Kriştianu Ronaldu: “İbrahimoviç mənim paxıllığımı çəkir”




Ötən günlərdə isveçli məhşur ulduz futbolçu Zlatan İbrahimoviç Kriştianu Ronaldunun “Yuventus” klubuna keçməsi barədə tənqid dolu açıqlama verib. Kriştianu Ronaldu isə ötən gecə “Yuventus” klubu ilə İtaliya Super kubokunu qazandıqdan sonra, İbrahimoviçə cavab verib. Kriştianu Ronaldu bildirib ki, Zlatan İbrahimoviç mənim paxıllığımı çəkir. Mən İngiltərədə hər şeyi qazandım, o uğursuz oldu. Mən İspaniyada hər şeyi qazandım, o uğursuzluqla üzləşdi. İndi isə İtaliyada yeni mübarizə axtarışındayam və burada da hər şeyi qazanmağa çalışıram. O da demək olar burada uğursuz çıxış etmişdi. Ona şərhçilik karyerasında uğurlar arzu edirəm. O, danışmağa, şərh etməyə davam etsin. Mən isə kuboklar qazanmağa davam edirəm”.

## ŞOK qərar: “Borussiya” “Bavariya”ya futbolçu satmayacaq!



Almaniyanın “Borussiya Dortmund” klubu “Bavariya”ya futbolçu satmayacaq. “Bild” nəşrinin yazdığına görə, bunu Dortmund təmsilçisinin rəhbəri Rayxard Raybal klubun son iclasında bildirib. Belə ki, “Borussiya” klubu Almaniya Bundesliqasında qızıl medallar uğrunda “Bavariya” ilə mübarizə aparmaq istəyir. Qeyd edək ki, “Borussiya Dortmund” klubu bir neçə gün əvvəl gənc oyunçusu Kristian Pulişiçi “Bavariya” klubu istədiyi halda məhz İngiltərənin “Çelsi” komandasına satmağa qərar vermişdi.

## “Real” son 6 ildə ən zəif mövsümünü keçirir



İspaniyanın “Real Madrid” futbol klubu son 6 ildə ilk dəfə bir mövsüm ərzində 10-cu dəfə məğlub olub. Madrid təmsilçisi yanvarın 10-da İspaniya kubokunun səkkizdəbir finalında 3:0 hesabı ilə “Leqanes” klubunu məğlub edib. Lakin yanvarın 16-da “Leqanes”lə keçirilən cavab oyununda minimal hesabla məğlub olub - 0:1. “Real” klubu növbəti mərhələ vəsiqə qazansa belə, cari mövsümdə bütün turnirlərdə 10-cu dəfə meydançanı məğlub tərk edib.

Qeyd edək ki “Real Madrid” klubu sonuncu dəfə 2012-2013-cü il mövsümündə bütün turnirlərdə 11 oyunda məğlub olub. Madrid təmsilçisi İspaniyanın çempionatında 33 xalla 4-cü yerdə qərarlaşıb.

## “Beşiktaş” üçüncü transferini reallaşdırıb




İstanbulun “Beşiktaş” futbol klubu qış transferi pəncərəsində Burak Yılmaz və İsimat Mirindən sonra üçüncü transferini reallaşdırıb. Klubun rəsmi saytında yer alan məlumata görə, Almaniyanın “Fortuna” klubunun 19 yaşlı yarımmüdafiəçisi Muhayer Oktay İstanbul təmsilçisi ilə 2023-cü ilədək müqavilə imzalayıb. Oktay karyerasının ilk debütünü 2017-ci ildə “Fortuna” klubunda edib. Yarımmüdafiəçi cari mövsümdə alman klubunun heyətində 10 oyun keçirib. Qeyd edək ki, Oktay 21 yaşadək futbolçulardan ibarət Türkiyə millisinin üzvüdür.

## Niko Hülkenberq şəxsi sponsoru ilə yollarını ayırıb




“Reanult”un alman pilotu Niko Hülkenberq şəxsi sponsoru “Dekra” şirkəti ilə yollarını ayırıb. Pilot 13 ildir əməkdaşlıq etdiyi maşın müayinə şirkətinə sosial şəbəkə hesabından təşəkkürünü bildirib. Sözügedən şirkət 7 dəfə dünya çempionu Mixael Şumaxerin də sponsor olub. Qeyd edək ki, “Dekra” şirkəti Formula 3 üzrə Avropa çempionatı və Formula 4 seriyaları da daxil olmaqla bir çox yarışların ən önəmli sponsorlarındandır.

***Elgün Vidadioğlu***


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**